QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 177 (5649) **20 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Əsrin müqaviləsi"ndən "Yeni Əsrin müqaviləsi"nə doğru

*İlham Əliyev: "Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub"*




Səh 3

**"Azərbaycan ilə Avstriya arasında əlaqələr yaxşı səviyyədədir"**



2

**Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb**



4

**Azərbaycan neftçiləri peşə bayramlarını qeyd edib**



4

**"Səs" İnformasiya Agentliyinin 10 yaşı qeyd olunub**



8

**Ermənistanın müdafiə naziri ordunu idarə edə bilmir**



12

**İbrahim Öztək: "Bakıda keçirilən parad Azərbaycan-Türkiyə birliyini bir daha bütün dünyaya göstərdi"**



2

6

**"Prezidentin çıxışı Ermənistan üçün ciddi xəbərdarlıq oldu"**



7

**"Prezident çıxışında Ordumuzun nəyə qadir olduğunu bir daha düşmənin yadına saldı"**



16

**"Qalatasaray", "Barselona" və "Liverpul" Çempionlar Liqasına qələbə ilə başlayıb**



# “Azərbaycan ilə Avstriya arasında əlaqələr yaxşı səviyyədədir”

## *Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın vitse-kanslerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayaraq Avstriyanın keçmiş Prezidenti Haynts Fişerin Azərbaycana və özünün Avstriyaya rəsmi səfərini məmnunluqla xatırladı. İqtisadi sahədə əməkdaşlığın da çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev bir sıra Avstriya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğuladı. Dövlətimizin başçısı əminliklə qeyd etdi ki, Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsi onların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq və səfər zamanı idman, nəqliyyat və digər sahələrdə əməkdaşlıqla bağlı aparılan danışıqlar ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.

Vitse-kansler Haynts-Kristian Ştraxe Avstriya Respublikasının Kansleri Sebastian Kurtsun salamlarını dövlətimizin başçısına çatdırdı. Haynts-Kristian Ştraxe qeyd etdi ki, böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin əsas məqsədi yaxşı səviyyədə olan Avstriya-Azərbaycan əlaqələrini daha da dərinləşdirmək və əlaqələrimizin xoş ənənələrindən çıxış edərək bu işlərə töhfə vermək niyyətindən ibarətdir. O, iki ölkə rəsmiləri arasında təmasların əlaqələrimizin inkişafı baxımından önəmli olduğunu dedi. Haynts-Kristian Ştraxe ölkələrimiz arasında iqtisadi və digər sahələrdə əməkdaşlığı dərinləşdirmək, strateji əhəmiyyətli məsələlərin müzakirəsi və konkret birgə layihələrin icrası məqsədilə şuranın yaradılmasını və bu şuranın iclaslarının mütəmadi olaraq keçirilməsini təklif etdi. O, eyni zamanda, bildirdi ki, ölkəsi Avropa İttifaqından Azərbaycana investisiyaların cəlb olunması, Avstriya texnologiyalarının ölkəmizə gətirilməsi və burada istehsal olunan məhsulların ixrac edilməsində maraqlıdır. Qonaq, həmçinin qeyd etdi ki, Avstriya tərəfi Azərbaycan şirkətlərinin ölkəsində təmsil olunmasına da maraq göstərir və Azərbaycan məhsullarının Avropa İttifaqı bazarlarına çıxarılması işində ölkəmizə dəstək verməyə hazırdır.

Dövlətimizin başçısı Avstriya Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.

### Rəsmi xronika

Prezident İlham Əliyev qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Hüseyn Saltuk Düzyolun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Mixail Şvıdkoyun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sadiq Sadıqovun Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# İbrahim Öztək: “Bakıda keçirilən parad Azərbaycan-Türkiyə birliyini bir daha bütün dünyaya göstərdi”

***Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli paradda nümayiş olunan hərbi güc Azərbaycanın və Türkiyənin ortaq sərvətidir. Bu fikri AZƏRTAC-a açıqlamasında Anadolu Aydınlar Ocağının rəhbəri, professor İbrahim Öztək bildirib. O deyib ki, 1918-ci ildə Qafqaz İslam Ordusunun yaranması barədə tarixi qərar və onunla bağlı bütün nailiyyətlər bugünkü uğurlarımızın əsasını təşkil edir.***

Nuru paşa və silahdaşlarının hörmətlə xatırlanması tarixin bütün dövrlərində xalqlarımızın varlığı və birliyi, təhlükəsizliyi, yaşaması və yaratması naminə çalışan, vuruşan, xidmət edən, şəhid olan bütün insanlarımızın xatirəsinə göstərilən ehtiramın təcəssümüdür.

Bakının qurtuluşunun 100 illiyi münasibətilə Azərbaycanda keçirilən tədbirlərdə iştirak etmək, o cümlədən paradı izləmək üçün Anadolu Aydınlar Ocağının təşkilatçılığı ilə 12 nəfərlik heyətin ölkəmizdə səfərdə olduğunu qeyd edən İbrahim Öztək əminliklə deyib ki, Azərbaycanın ərazi bütövlüyü naminə Türkiyə tərəfindən hər an mübarizəyə qoşulmaq istəyənlərin sayı yüz minlərlədir. “Qarabağsız Azərbaycan, Azərbaycansız Türkiyə yoxdur!” ifadəsi ilə fikirlərini davam etdirən professor deyib: “Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da paradda iştirak və çıxış etməsi bu tarixə olan dəyərin göstəricisidir. Azərbaycanda nizami ordunun qurulması, yüksək hərbi texnika və silahlarla təchiz olunması, peşəkar əsgəri gücün təmin edilməsi ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strategiyanın təzahürüdür. Parad Azərbaycan-Türkiyə birliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Bundan başqa, paradın mütəşəkkilliyi Azərbaycanın müdafiə qüdrətinin yüksək səviyyədə olduğunu dünya ictimaiyyətinə, o cümlədən təcavüzkar düşmənə aydın göstərdi. İndi Ermənistanın bir çarəsi var: işğaldan, əsassız iddialardan əl çəkmək və bütün qonşuları ilə normal yaşamaq yoluna gəlmək”.



# “Əsrin müqaviləsi”ndən “Yeni Əsrin müqaviləsi”nə doğru

## *İlham Əliyev: “Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub”*

***14 sentyabr ölkəmizin həyatında çox əlamətdar və tarixi gün - yeni “Əsrin müqaviləsi”nin imzalandığı “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövrün başladığı gün. Belə ki, “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Bu Saziş Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış saziş də ölkəmizin maraqlarını tam təmin edirdi. Bu dəfə isə, daha yaxşı şərtlərlə Saziş imzalandı. Bu Sazişin yeni “Əsrin müqaviləsi” adlandırılması da təsadüfi deyil. Azərbaycanın gələcək inkişafı, ölkənin maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var.***




### “Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik”

Azərbaycan 1994-cü ildən iki dəfə sərfəli bir sazişin imzalanmasına nail oldu. Prezident İlham Əliyev Yeni Sazişin imzalanması ilə bağlı keçirilən tədbirdə bildirib ki, bu gün Azərbaycan üçün əlamətdar və tarixi bir gündür: “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsində yeni dövr başlayır”.

Dövlət başçısı bildirib ki, müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti var: “Bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadılır. Bu kontrakt Azərbaycan üçün daha əlverişli və daha yaxşı şərtlərlə imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. SOCAR-ın payı 25%-ə qaldırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcək. “Əsrin müqaviləsi” imzalanan zaman “AÇG”-də 511 milyon ton neft olduğu ehtimal edilirdi. Ancaq ehtiyatlar proqnozları üstələdi. Hazırda “Azəri-Çıraq-Günəşli”də hasil edilməmiş 500 milyon ton neft var”.

Prezident “Əsrin müqaviləsi” imzalanan ərəfəyə də tarixi ekskurs edib: “1992-ci ildə AXC-Müsavat hakimiyyəti dövründə ölkədə anarxiya yaşanıb. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayıb. Bununla yanaşı, Ermənistan torpaqlarımızın böyük hissəsini işğal etmişdi. Belə ağır vəziyyətdə xalq Heydər Əliyevi dəvət etdi”.

Ölkə başçısı onu da deyib ki, o dövrdə xarici investorları cəlb etmək tarixi nailiyyət idi: “Bu, böyük məharət tələb edirdi. İndi Azərbaycan öz hesabına yaşayan ölkələrdəndir. Ölkəmizin gələcək inkişafı üçün siyasi, iqtisadi və ya başqa maneə yoxdur. Ölkəmiz bundan sonra uğurla inkişaf edəcək. Bu potensialın formalaşmasında “Əsrin müqaviləsi”nin böyük rolu var. Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik. Bu, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanı da bizə “Əsrin müqaviləsi” yaratdı”.

### “Neftin qiyməti bizi yolumuzdan döndərmədi”

Prezident İlham Əliyev çıxışında xatırladıb ki, 2012-ci ildə Türkiyədə TANAP layihəsinə imza atıldı. 2013-cü ildə isə TAP layihəsi qaz kəməri kimi seçilib. Dövlət başçısı onu qeyd edib ki, “Səngəçal” dünyada ən böyük neft-qaz terminalıdır: “Azərbaycanda neft platformaları tikilir. Bunlar “Əsrin müqaviləsi”nin Azərbaycana verdiyi faydalardır. Dövlət Neft Fondu bizim üçün böyük bir amildir. Neftin qiymətinin düşməsi də bizi yolumuzdan döndərə bilmədi. Biz valyuta ehtiyatlarımızı artırırıq. “Şahdəniz”, “Cənub Qaz Dəhlizi” layihəsinin həyata keçməsi ilə valyuta ehtiyatlarımız daha da artacaq”.

### Daha bir addım: yeni əməkdaşlıq üfüqləri

Yuxarıda vurğulanan bütün məqamlar, onu təsdiq edir ki, Azərbaycan rəhbərliyi 24 il ərzində enerji layihələrindən əldə edilən gəlirləri, əsas olaraq Azərbaycanın sosial-mədəni, intellektual, mənəvi, iqtisadi və ekoloji inkişafına sərf edib və onların hamısının kökündə “Əsrin müqaviləsi” dayanır! Bu, müasir mərhələdə müstəqil dövlət quruculuğunun ən səmərəli yoludur. Azərbaycan təcrübəsi bunu tam təsdiqləyir. Çox vacib məqamdır ki, ölkə rəhbərliyi həmin istiqamətdə prinsipial əhəmiyyətli yeni bir addım atıb.Onu da vurğulamaq lazımdır ki, “Yeni Əsrin müqaviləsi” sazişi şübhəsiz ki, 1994-cü ildə imzalanmış müqavilənin yalnız zaman baxımından deyil, həm də geosiyasi, iqtisadi, mədəni və siyasi aspektdə davamıdır. Ölkə başçısı yeni sazişin imzalanması mərasimində söylədiyi nitqində bunu xüsusi ifadə edib. Yuxarıda təsvir edilən faktlardan da, görünür ki, 1994-cü il müqaviləsi strateji məzmun kəsb edib. İndi imzalanan müqavilə də, məhz bu prizmadan olduqca vacib hadisədir.

Lakin yeni sazişin imzalanmasından, bir neçə gün əvvəl, bir sıra Avropa ölkələrinin KİV-i və qeyri-hökumət təşkilatları Azərbaycana qarşı çirkin təbliğat kampaniyasına başladılar. O zaman ekspertlər belə qiymət verdilər ki, (o cümlədən, “Newtimes.az” portalının analitik yazılarında bu, ayrıca vurğulanırdı - red.) bu kimi qarayaxma kampaniyası, adətən, Azərbaycanın hansısa əhəmiyyətli addımı ərəfəsində konkret dairələr tərəfindən aparılır. Məsələn, 1994-cü ildə “Əsrin müqaviləsi”nə mane olmaq üçün çox dəhşətli hadisələr törədildi. Dövlət adamlarına qarşı sui-qəsdlər planlaşdırıldı. Hətta o zaman ölkəyə rəhbərlik edən Ulu Öndər Heydər Əliyevə sui-qəsd etməyə cəhd göstərildi. Sonra “Avroviziya” Mahnı Müsabiqəsi ərəfəsində, Azərbaycana qarşı olduqca çirkin təbliğat kampaniyası aparıldı. Hətta bəzi qonşu ölkələrin jurnalistləri Bakıda etik normalara sığmayan hərəkətlər etdi, ölkəmizə qarşı qərəzli informasiyalar yaydılar.

İndi də eyni ssenari təkrarlanır. Lakin bu dəfə, düşmənlər 1994-cü ildə olduğu kimi, Azərbaycanda sui-qəsdlər və terror aktları təşkil edə bilmirlər. Yeni “Əsrin müqaviləsi”nin imzalanmasından sonra ölkəmiz bütün istiqamətlərdə sürətlə inkişaf edib və təhlükəsizliyini tam təmin edə bilir. Bu səbəbdən də, yeni enerji sazişinin imzalanması ərəfəsi müəyyən dairələr, yalnız ideoloji kampaniya aparmağa çalışdılar, onun da qarşısını Prezident İlham Əliyev öz müdrik addımları ilə dərhal aldı. İndi dünyanın hər yerində Azərbaycanda həyata keçirilən islahatlardan danışırlar.

Bəli, bu dəfə də düşmənin arzusu gözündə qaldı - Azərbaycan “Yeni Əsrin müqaviləsi”ni imzaladı! Ölkə başçısının imzalama mərasimində ifadə etdiyi bir fikri bu bağlılıqda tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev həmin fikri belə ifadə etmişdi: “Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır”.

### Geosiyasi aspektdə yeni dövrün özəllikləri nədən ibarətdir?

Qeyd edək ki, ölkə başçısı söylədiyi nitqində həmin fikirləri hərtərəfli və konkret ifadə edib. Hər şeydən öncə, yeni imzalanan kontrakt “Azərbaycan üçün daha da əlverişlidir... bu dəfə daha yaxşı şərtlərlə kontrakt imzalanır”.

Təbii ki, 1994-cü il kontraktı da çox əlverişli idi. Burada İlham Əliyev dəyişən geosiyasi, iqtisadi və maliyyə şərtləri müstəvisində yeni sazişin ölkənin maraqlarına tam uyğun olmasını vurğulayıb. Çünki bütün dünyada dərin maliyyə-iqtisadi böhranı hökm sürür.

Sözsüz ki, resurslar uğrunda böyük dövlətlər ölüm-dirim savaşı aparırlar. Demək olar ki, dünyanın bütün regionlarında təbii ehtiyatların bölgüsü prosesi gedir. Bunu gizlətmək mümkün deyildir. Belə bir şəraitdə Azərbaycan dünyanın nəhəng dövlətlərini təmsil edən şirkətlərlə milli maraqlara uyğun saziş imzalayırsa, deməli, həqiqətən də, bu kontrakt Azərbaycan üçün daha da əlverişlidir.

Eyni zamanda, yeni müqavilənin imzalanması ətrafında təhlillərimizi aparərkən, həm də belə nəticəyə gəlmək mümkündür ki, bu müqavilədə iştirak edən şirkətlər, dünyada tanınmış şirkətlər olduğuna görə, həm də dünyanın aparıcı dövlətlərinə məxsusdurlar. Məhz bu baxımdan, həmin dövlətlərin və şirkətlərin iştirakçısı olduğu müqavilələr daima qorunub-saxlanılır, çalışılır ki, regionda heç bir ciddi problemlər yaranmasın. Bu isə, Azərbaycan üçün əhəmiyyətlidir. Ona görə də, belə bir amilə də toxunaraq, qeyd edə bilərik ki, müqavilənin imzalanması həm də möhkəm əsaslara dayanan müstəqilliyimizin və ölkəmizdəki stabilliyin qorunub-saxlanılması baxımdan əhəmiyyətlidir. Eyni zamanda, Azərbaycanın müstəqil ölkə olaraq, dünyadakı mövqeyi daha da möhkəmlənəcək, bu faktor yaxın illərdə ölkəmizin dünyanın siyasi-iqtisadi məkanındakı yerini və rolunu növbəti dəfə artırmış olacaq.

Göründüyü kimi, Azərbaycanın yeni enerji sazişindən alacağı yalnız bonus Ermənistanın büdcəsinin gəlir hissəsindən 1 milyard ABŞ dolları qədər çoxdur! Onu da, qeyd edək ki, məhz bu kimi faktlara görə, Ermənistan və onun havadarları Azərbaycanın atdığı hər uğurlu addımdan təlaşa düşür, Azərbaycanla bağlı ağlasığmayan, iftira dolu, yalan məlumatlar yaymaqla özlərinə təsəlli verməyə çalışırlar. Ancaq təcrübə göstərir ki, bu kimi hərəkətlər Azərbaycan rəhbərliyini seçdiyi yoldan qətiyyən yayındıra bilmir, bilməyəcək də. Prezident İlham Əliyev təmkinli, uzaqgörən və düşünülmüş siyasəti ilə qarşıya çıxarılan bütün maneələri keçir və ölkəni yeni zirvələrə doğru aparır.

### Nəticə

Bütün bu deyilənlərin məntiqi nəticəsini ölkə başçısı nitqində çox lakonik və maraqlı ifadə edib. Prezident İlham Əliyev vurğulayıb: “Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur”

Beləliklə, “Yeni Əsrin müqaviləsi” Azərbaycanın dövlətçilik tarixində mühüm hadisələrdən biridir. O, faktiki olaraq, dövlət quruculuğunun yeni mərhələyə qədəm qoymasını ifadə edən faktorlar sırasındadır. Bu prosesin geosiyasi aspektdə çox vacib cəhəti ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət quruculuğunu beynəlxalq aləmdə nüfuzunu sürətlə yüksəltməklə inkişaf etdirir. Artıq ölkənin etibarlı tərəfdaş obrazı formalaşıb. Dünyanın nəhəng enerji şirkətlərinin hər biri Bakı ilə əlaqələrin qurulmasına can atır. Bu prosesin əsasını Ulu Öndər Heydər Əliyevin uzaqgörən neft strategiyası qoyub. Hazırda onu Prezident İlham Əliyev böyük uğurla inkişaf etdirməkdədir. “Yeni Əsrin müqaviləsi”, məhz bu titanik zəhmətin bəhrəsidir. Azərbaycan bundan sonra da sürətlə və qətiyyətlə inkişaf edəcək! Yeni əsrdə yeni zirvələr fəth ediləcək!

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycan neftçiləri peşə bayramlarını qeyd edib





Azərbaycan neftçiləri peşə bayramlarını qeyd edib. AZƏRTAC xəbər verir ki, sentyabrın 19-da "Əsrin müqaviləsi"nin imzalanmasının ildönümü və Azərbaycan neft-qaz sənayesi işçilərinin peşə bayramı - "Neftçilər günü" ərəfəsində SOCAR-ın rəhbərliyinin nümayəndələri və çoxminli kollektivinin təmsilçiləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Həmin gün SOCAR-ın baş ofisində "Azərbaycan nefti" ekspozisiyasının açılışı olub. Mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, energetika naziri Pərviz Şahbazov, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, SOCAR və BP şirkətlərinin rəhbərliyi və qabaqcıl neftçilər iştirak edib. Ekspozisiyada Azərbaycan neftinin qədim tarixi və ölkəmizin neft-qaz sənayesinin şanlı inkişaf mərhələləri, həmçinin son illərdə əldə edilmiş nailiyyətlər öz əksini tapıb. Aparıcı sahələr barədə verilən əyani məlumatlar, istifadə olunan interaktiv görüntülər və maketlər sərgiyə böyük maraq doğurur.

20 sentyabr - "Neftçilər günü"nə həsr olunan təntənəli mərasimdə əvvəlcə "Neftçilər günü"nə, SOCAR-ın fəaliyyətinə və son illərdə neft-qaz sənayesində əldə edilmiş nailiyyətlərə həsr olunmuş videoçarx nümayiş edilib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev bütün neftçiləri peşə bayramı günü münasibətilə təbrik edərək deyib: "Yüksəkixtisaslı, zəhmətkeş neftçilər bizim ən qiymətli xəzinəmizdir. Məhz fədakar neftçi əməyinin sayəsində SOCAR ilbəil böyüyür, genişlənir. Biznes portfelini şaxələndirmək, hər hansı bir sahə və ya məhsuldan asılılığı minimuma endirmək məqsədilə 2008-ci ildən etibarən müxtəlif sahələrə yatırdığımız investisiyalar artıq öz bəhrəsini verməkdədir. Qarşıda bizi yeni üfüqlər, böyük perspektivlər gözləyir".

Energetika naziri Pərviz Şahbazov bildirib: "Azərbaycanın neft sənayesinin qədim tarixini, enerji ölkəsi kimi qlobal əhəmiyyətini əks etdirən bu simvolik gün xalqımızın ümummilli lideri Heydər Əliyevin neftçilərimizin şərəfli əməyinə verdiyi yüksək qiymətin təcəssümüdür. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan öz nefti ilə yeni status qazanaraq, uzaqgörənliklə gələcək enerji siyasətinin konturlarını müəyyənləşdirmiş oldu".

"Hələ 1996-cı ildə Heydər Əliyev görüşlərinin birində demişdir ki, 1994-cü ilin sentyabrında imzalanmış müqavilə 30 il üçün nəzərdə tutulub. Əminəm ki, əməli işimiz bu müqavilənin müddətini uzadacaq. Çünki yeni imkanlar meydana çıxacaq. Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində ölkəmizin "Əsrin müqaviləsi"nin müddətinin 2050-ci ilədək uzadılmasına nail olması Ulu Öndərin bu müdrik gözləntilərini doğrultdu və dövlətimizin nə qədər aydın yolda olduğunu göstərdi", - deyə nazir əlavə edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Son 20 ildən artıq bir müddət ərzində Azərbaycanın inkişafı, burada yaradılmış dünya səviyyəli enerji infrastrukturu və miqyasca bərabəri olmayan neft və qaz layihələri bu ölkəni iri bir beynəlxalq enerji mərkəzinə çevirib. Bu layihələrin əsas qəhrəmanları, əlbəttə ki, ölkənin çoxsaylı neftçiləridir. "Neftçilər günü"nü qeyd etməklə biz onların fədakar əməyinə və böyük nailiyyətlərinə dəyər veririk. Onlar hamımızın dərin hörmətinə və sevgisinə layiqdirlər. Onlar Azərbaycanın yeni nəsil neftçilərinə daim nümunə olacaqlar və gənc nəsil məhz onlara bənzəməyə can atmalıdır".

Daha sonra 2017-ci ilin yekunlarına görə əsas peşələr üzrə "İlin ən yaxşısı" nominasiyası qaliblərinə mükafatlar təqdim edilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 16 avqust tarixli Sərəncamına əsasən hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər günü" peşə bayramı kimi qeyd olunur.



# Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb

Dünən AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri Xiyabanda görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib. Şərqşünas-alimlər Aida xanımın xatirəsini ehtiramla anaraq, məzarı önünə əklil qoyublar. İnstitutun direktoru, akademik Gövhər Baxşəliyeva, 26 il öncə, dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan bəhs edib. O, Aida xanımın dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini və Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

G.Baxşəliyeva şərqşünas-alimin müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açdığını, elmi məktəbin əsasını qoyduğunu, həmçinin, onun Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı qadın olduğunu söyləyib. Aidə xanımın elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan G.Baxşəliyeva onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi fəaliyyət göstərdiyini vurğulayıb. Bildirib ki, Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlayıb. İnstitutun Ərəb filologiyası şöbəsinə başçılıq etdiyi, qısa müddət ərzində, onun, bilavasitə səyləri ilə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilib.

Daha sonra Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Vilayət Cəfərov çıxış edərək, Aida İmanquliyevanın Azərbaycan şərqşünaslığında yeni dövr ərəb ədəbiyyatının ilk tədqiqatçısı və ilk azərbaycanlı elmlər doktoru, professor ərəbşünas qadın olduğunu söyləyib. O, Aida xanımın keçmiş sovetlər məkanında şərqşünaslar arasında böyük nüfuza malik olduğunu qeyd edərək, məşhur alimlərin onun haqqında söylədikləri dəyərli fikirləri xatırladıb.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri hər bir sahədə uğurla inkişaf edir

Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov sentyabrın 19-da Türkiyə Böyük Millət Məclisi (TBMM) xarici işlər komissiyasının rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycan ilə Türkiyə arasında çox yaxşı əlaqələrin olduğunu və bu əlaqələrin sürətlə inkişaf etdiyini söyləyib. Sentyabrın 15-də Bakının azad edilməsinin 100 illiyi ilə bağlı keçirilən paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakının önəmini qeyd edən Ziyafət Əsgərov bunun birliyimizi sarsıtmaq istəyən qüvvələrə bir mesaj olduğunu qeyd edib. O, 100 il əvvəl olduğu kimi, 1990-cı illərin əvvəllərində də müstəqilliyimizi tanıyan ilk dövlətin məhz Türkiyə olduğunu vurğulayıb.



Milli Məclis sədrinin birinci müavini diqqətə çatdırıb ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri hər bir sahədə davam edir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti və TANAP layihəsinin həyata keçirilməsinin təkcə iqtisadi yox, həm də siyasi və mənəvi-psixoloji əhəmiyyətinin olduğunu qeyd edən Ziyafət Əsgərov bu layihələrin Türkiyə və Azərbaycan dövlətlərinin, xalqlarının daha da yaxınlaşmasına töhfə verdiyini deyib. Görüşdə Ziyafət Əsgərov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı danışıb.

TBMM-in xarici işlər komissiyasının sədri Volkan Bozkır Azərbaycana növbəti səfərdən məmnunluqlarını qeyd edib. O, qardaş ölkələrimiz arasında münasibətlərin inkişafının qürur doğurduğunu vurğulayıb. Volkan Bozkır münasibətlərimizin bütün dünyaya gözəl örnək olduğunu deyib. Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib.

# Siyavuş Novruzov: "Səs" İnformasiya Agentliyinin böyük tarixi var"

"Səs" İnformasiya Agentliyinin yaranmasının 10 illiyi münasibətilə təbrik edirəm, uğurlar arzulayıram". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, "Səs" İnformasiya Agentliyi qısa müddətdə fəaliyyətə başlasa da, çox böyük tarixi var: "Agentlik "Səs" qəzetinin bazasında formalaşan bir media qurumudur. Amma bununla yanaşı özündə müasirliyi, inkişafı, tərəqqini əks etdirib. "Səs" İnformasiya Agentliyi ölkəmizin hər bir yerindən, hər bir sahəsindən mütəmadi olaraq Azərbaycan ictimaiyyətini informasiya ilə təmin edir. Bir sözlə, Agentlik az sayda kollektivlə çox böyük işlər



görür. Mən kollektivə uğurlar arzulayıram və təbrik edirəm".

# YAP gənclərinin iştirakı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda tədbir keçirilib






Sentyabrın 19-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov ölkəmizdə həyata keçirilən uğurlu dövlət-din, gənclər siyasəti barədə danışıb. Bildirilib ki, tədbirin əsas məqsədi gənclərin dövlət-din sahəsində həyata keçirilən siyasətə münasibətini öyrənməkdir. A.Cavadov qeyd edib ki, Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim dini sahəyə, inanclı insanlara xüsusi diqqət və qayğı ilə yanaşır. Dövlətimizin başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir.

Daha sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sərbəst şəkildə fəaliyyət göstərirlər. Azərbaycan tolerant dövlətdir, ona görə də ölkədə dini ayrı-seçkilik yoxdur. Bu da Azərbaycan dövlətinin özünəməxsusluğudur. Azərbaycan parlamentinin üzvləri arasında xristian və digər dinlərin nümayəndələrinin olduğunu diqqətə çatdıran S.Orucov ölkəmizin hər zaman tolerantlıq prinsiplərinə sadiq qaldığını bildirib. Bütün bunlar ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Hər kəs bilməlidir ki, radikallığın sonu uçurumdur. Ölkə gəncləri yan təsirlərə meyillənməməlidirlər. O qeyd edib ki, Azərbaycanda din və dövlət münasibətləri ilə bağlı təkmil qanunvericilik bazası mövcuddur.

DQİDK-nın təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova isə qeyd edib ki, xalqımızın milli adət-ənənələri, əxlaqi, mənəvi dəyərləri onun qədim tarixə malik zəngin mədəniyyətinin və zəngin mənəviyyatının göstəricisidir. Hər bir xalqın adət-ənənələri onun mənsub olduğu dinlə sıx bağlıdır. E.Kərimova vurğulayıb ki, İslam dini Azərbaycan xalqının milli-mənəvi dəyərlərində, dünyagörüşündə, həyat tərzində, adət-ənənələrində dərin izlər buraxıb. Zaman keçdikcə, cəmiyyət dəyişdikcə, sadəcə, din və onun qayda-qanunları, hökmləri dəyişilməz qalır. Şöbə müdirinin sözlərinə görə, adət-ənənələr, mərasimlər isə zamanla dəyişir, müasir dövrün tələbinə uyğunlaşır, yeni forma və məzmun kəsb edir. O deyib: "Dini mərasimlər dinimizi, tariximizi, mədəniyyətimizi, ənənələrimizi, həyat tərzimizi əks etdirməlidir. Düzgün maariflənmə, fərdi şəkildə xurafatla mübarizə, elmimizin və mənəviyyatımızın paralel inkişafı dinimizi xurafatdan, mövhumatdan qoruya və gələcək nəsillərə ötürə bilər".

Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov çıxışında ölkəmizdə mövcud olan multikulturalizm dəyərlərindən bəhs edib. Multikulturalizm və tolerantlığın xalqımızın həyat tərzi olduğunu diqqətə çatdıran A.Şirinov vurğulayıb ki, ölkəmiz dünyada müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əminamanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı diyar kimi tanınır. Azərbaycan İlahiyyat İnstitutu barədə də məlumat verən prorektor bildirib ki, adıçəkilən ali məktəbin yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Səsi Qarabağdan da gələcək "SƏS" İnformasiya Agentliyi

## *Yaxud 10 ilin 100 ilə bərabər mükəmməl media təcrübəsi*



***"Qoy səsiniz hər zaman ucadan gəlsin" deyilən bir alqış məfhumu var və bu alqış bəlkə də onların içində ən səslisidir. Dünən "SƏS" İnformasiya Agentliyinin 10-cu ildönümünü qeyd etdik və ən çox da eşitdiyimiz təbriklər, məhz "Qoy səsiniz hər zaman ucadan gəlsin" alqışları oldu. Əlbəttə ki, qürrələndik, fərəhləndik və növbəti dəfə hansı məsuliyyət daşıdığımızı, hansı məqsədlərə xidmət etdiyimizi bir daha dərk etdik - dövlətçilik amalı, Heydər Əliyev ideologiyası, tərəfsizlik, qərəzsizlik və jurnalist işi..!***

### Qocamanlarla gənclər külüngü bir yerə vururlar

Düz 10 ildir ki, tarixi və əbədiyaşar "SƏS" qəzetinin bazasında baş redaktorumuz Bəhruz Quliyevin təşəbbüsü ilə təsis edilmiş eyniadlı İnformasiya Agentliyi, artıq dünya miqyasında öz sözünü deməkdə, səsini çatdırmaqdadır. "Səsiniz ucadan gəlsin" alqışı da, görünür, bu, deməkdir. Lakin agentliyimiz yaradılarkən, buna qədər keçilmiş enişli-yoxuşlu yolları, çətinlikləri, dövlətçilik uğrunda aparılan qətiyyətli mübarizələri də unutmaq olmaz. Çünki bu adın özündə, çox yəqin ki, bilənlər bilir - nə qədər tarixlər, anlar və məqamlar dayanmaqdadır. Həm də ki, bütün bunların canlı şahidləri də var nə yaxşı ki. Bu gün qocaman, 27 yaşlı "SƏS"çilərlə 10 yaşını tamam etmiş SİA-nın gənc jurnalistləri bir arada çalışır, bir yerdə fikir mübadilələri aparır, bir yerdə dövlətçilik maraqlarına xidmət edir və külüngü də, necə deyərlər, bir yerə vururlar.

Bəli, bu gün bir redaksiyada, bir dam altında həm "SƏS" qəzeti işıq üzü görür, həm "SƏS" İnformasiya Agentliyi fəaliyyət göstərir, həm də SƏS İnternet Televiziyası gecəgündüz, 24 saat canlı efirdə tamaşaçıların ictimai, siyasi, sosial, iqtisadi, mədəni, idman və s. baxış maraqlarını təmin edir. Bu redaksiya, artıq bizim ikinci evimizdir və həyatımızın çox hissəsini bu damın və bu məktəbin altında keçiririk. Görülən işlər isə, eyni zamanda, 10 ilin 100 ilə bərabər mükəmməl media təcrübəsidir və əlbəttə ki, bütün bunlar elə-belə, balaca işlər deyil, əksinə, qlobal informasiya texnologiyalarının inkişafına təsadüf edən çağdaş zamanımızda nəhəng bir iş prosedurudur. Bəlkə də bir çoxları kənardan bu işlərin asan aparıldığını sanırlar, ancaq praktiki cəhətdən nəzər yetirdikdə, bunun heç də belə olmadığı göz önündədir.

### "SƏS" məktəbi daim bu məsuliyyəti özünün prioriteti olaraq qəbul edib!

Daha bir məqama diqqət yetirək - ölkəmizdə söz və mətbuat azadlığının qorunması və inkişafı istiqamətində davamlı işlər aparan Prezident İlham Əliyev, məhz həmin faktoru əsas tutaraq, medianın fəaliyyətini daim yüksək qiymətləndirib. Əbəs deyil ki, hər il bununla bağlı dövlət büdcəsindən mətbuatın inkişafına müəyyən məbləğdə vəsaitlər ayrılır. Belə olan təqdirdə, media təmsilçiləri də, öz üzərlərinə düşən məsuliyyəti dərk etməli, Azərbaycanın müstəqil və müasir mətbuatının tərəqqisi üçün var gücləri ilə çalışmalıdırlar. "SƏS" məktəbi daim bu məsuliyyəti özünün prioriteti olaraq qəbul edib və bundan sonra da edəcək.

Bu gün "SƏS"in səsi istər beynəlxalq arenalardan, konfranslardan, müxtəlif nəhəng tədbirlərdən gəlir, lakin əsas səsimiz İnşaAllah işğal altından azad olunacaq Qarabağımızdan, Xankəndimizdən və Şuşamızdan gələcək. Biz, buna inanır və ona doğru gedirik!

**RÖVŞƏN NURƏDDİNOĞLU**



# NATO baş katibinin müavini Azərbaycana gələcək

NATO baş katibinin müavini Rouz Qottemüller sentyabrın 20-də Azərbaycana səfər edəcək. "Report" xəbər verir ki, R.Qottemüller səfər çərçivəsində rəsmi şəxslərlə görüşlər keçirəcək, Azərbaycanla NATO arasında əməkdaşlıq məsələlərini müzakirə edəcək.

# “Prezidentin çıxışı Ermənistan üçün ciddi xəbərdarlıq oldu”

“Cənab Prezident vaxtaşırı bölgələrə səfər edir. Bu səfərlər ilk növbədə Onun tapşırıq və nəzarəti ilə işə başlayan mühüm obyektlərin açılışı ilə bağlıdır. Bu obyektlərdə minlərlə, yüzlərlə iş yerləri açılır, regionların sosial, iqtisadi siması dəyişir. Ən əsası Azərbaycanın inkişafının artıq çoxdan paytaxtdan regionlara keçdiyi təsdiq olunur”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.



O bildirib ki, Prezident İlham Əliyev regionlara səfəri zamanı oradakı real vəziyyəti birbaşa özü görür və həm ümumilikdə ölkənin, həm də regionun inkişafı ilə bağlı gələcək planların artıq əsasını qoyur: “Dövlət başçısı rayonlara səfəri zamanı rayon ictimaiyyəti ilə görüşdə Azərbaycanın bugünkü vəziyyəti ilə bağlı vətəndaşları məlumatlandırır, həmçinin bu və ya digər məsələlər barədə mövqeyini ortaya qoyur”. Dövlət başçısının Biləsuvar rayonuna səfərini xatırladan deputat söyləyib ki, səfər zamanı həm mühüm obyektlər açıldı, həm də Azərbaycan Prezidenti bir neçə vacib məsələyə öz münasibətini bildirdi: “Dövlət başçısı bu gün Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu qeyri-konstruktiv məsələ ilə bağlı prinsipal mövqeyini ortaya qoydu. Bu mövqe əvvəldən də məlum idi. Lakin son dövrlərdə Ermənistanın Azərbaycanla müharibə dili ilə danışması, ölkəmizin daxili işlərinə müdaxilə etmək istəməsi, əlbəttə ki ölkəmizin adekvat reaksiyasına səbəb olur. Cənab Prezident Ermənistandakı vəziyyəti faciəvi adlandırdı. Ermənistanda diktatura olduğunu və bunun düşmən ölkə üçün fəlakətlər gətirəcəyi ilə bağlı fikrini bildirdi”.

A.Mirzəzadə qeyd edib ki, Ermənistanda baş verənlərlə əlaqədar söylənən fikirlər təkcə Azərbaycanın mövqeyi deyil, artıq bütün dünya bunları görür: “Ermənistanda müstəqillik qazanandan qonşu dövlətlərə qarşı torpaq iddiası, ritorik cəmiyyətin qurulması, insanların deyil, sadəcə olaraq hakimiyyətdə olanların maddi vəziyyətinin yaxşılaşmasının əsas prinsip olaraq götürülməsi, məlum nəticələrə gətirib çıxarır: “Cənab Prezident heç zaman Azərbaycanın torpaq itkisi ilə razılaşmayacağını, ölkəmizin danışıqlar prosesinə Ermənistanın ziyan vurmasının ilk növbədə özünə problem yaradacağını, ən əsası ilə ölkəmizin silahlı qüvvələrinin bu gün də Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün döyüşlərə hazır olduğunu bir daha vurğuladı. Dövlət başçısı eyni zamanda bir neçə gün bundan öncə hərbçilərimizin Ermənistan mövqelərinə ciddi zərbə vurması məlumatını verdi. Əlbəttə ki bütün bunlar bir daha göstərir ki, Ermənistan işğalı davam etdirdikcə Azərbaycan tərəfdən çox ciddi zərbələr alacaq. Bir gündə olsa hərbi xidmət keçməmiş və hərbi işdən tamamilə xəbərsiz Ermənistan ali baş komandanı Nikol Paşinyanın Dağlıq Qarabağa qanunsuz, təcili səfəri də ilk növbədə bununla bağlı olan məsələdir”.

Cənab Prezidentin çıxışının Ermənistan üçün ciddi xəbərdarlıq olduğunu vurğulayan deputat deyib ki, düşmən ölkənin bu gün Azərbaycanla qarşıdurması üçün heç bir güc və resursu yoxdur: “Onun işğalçılıq siyasətini bu gün dünyada heç bir dövlət dəstəkləmir. Öz xalqını aldatmaq, xalqının son çörək pulunu əlindən alaraq Azərbaycan torpaqlarını işğalda saxlamağa yönəltməsi, sonda Ermənistanın zəifləməsinə, düşmən ölkənin bir-birinin ardınca ağır problemlərə düçar olmasına gətirib çıxardacaq”.

## “Hraparak” qəzeti: Paşinyan keçmiş vəzifəliləri uzaqlaşdırır və aşağılayır

“Hraparak” qəzetinin yazdığına görə, Nikol Paşinyan hökuməti keçmiş hakimiyyətdə təmsil olunan, eləcə də dövlət aparatında çalışmış bütün şəxsləri vəzifələrindən uzaqlaşdırır. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, növbəti “qurban” Ermənistan parlamentinin Respublika partiyasından olan fraksiya üzvü Murad Muardyanın kürəkəni Gevork Simonyandır. Belə ki, ona Ararat vilayətinin istintaq idarəsinin rəisi vəzifəsindən istefa verərək, “öz xoşu ilə getməsi” barədə ultimatum verilib.

Lakin maraqlı məqamlardan biri də budur ki, Paşinyanın adamları yüksək vəzifə statusundan məhrum olunan Muradyanı aşağılamağa da macal tapıblar. “Hətta ona böyük minnət də qoyulub - ona həmin sistemdə sıravi işçi kimi qalmaq təklifi verilib”, yazan “Hraparak” Simonyanın yerinə Ambakum Qriqoryanın təyin olunduğunu yazır.

# Xudat sərhəd dəstəsinin xidməti ərazisindəki Yuxarı Tahircal kənd məktəbi əsaslı təmir olunaraq istifadəyə verilib





Müstəqil dövlətimizin banisi ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasətinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ölkəmizin sərhəd mühafizəsinin müasir tələblər səviyyəsinə qaldırılmasına əlverişli zəmin yaradıb, dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması istiqamətində davamlı dinamik inkişafa nail olunub. Azərbaycan Sərhəd Mühafizəsi infrastrukturunun təkmilləşdirilməsi, yeni hərbi hissələrin yaradılması, ən müasir texnika və vasitələrin sərhəd xidmətində tətbiqi, şəxsi heyətin döyüş vərdişlərinin və peşəkarlığının daha da yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər uğurla həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xidmət sərhədlərimizin etibarlı mühafizəsi ilə yanaşı, eyni zamanda, sərhədyanı rayonların əhalisi ilə sıx qarşılıqlı əlaqələr quraraq onların müqəddəs sərhədlərimizin mühafizəsindəki roluna xüsusi önəm verir və sosial-məişət problemlərinin həllində də yaxından iştirak edir.

Belə sosialyönümlü tədbirlərdən biri də sentyabrın 17-də Xudat sərhəd dəstəsinin xidməti ərazisində yerləşən Yuxarı Tahircal kənd orta məktəbinin Dövlət Sərhəd Xidməti tərəfindən əsaslı təmir olunaraq məktəblilərin istifadəsinə verilməsi olub.

Respublikamızın şimal sərhədləri mühafizə altına götürülərkən heç bir sərhəd infrastrukturu olmayan Qusar rayonunun ərazisində yerli sakinlər sərhədçilərin yardımına gəlib, sərhəd zastavalarının yaradılmasında, dövlət sərhədinin mühafizəsinin təşkilində onlara yaxından kömək göstəriblər. Bu yaxınlarda Yuxarı Tahircal kəndində ən müasir tələblərə cavab verən yeni sərhəd zastavası tikilib sərhədçilərin istifadəyə verildikdən sonra vaxtilə yerli sakinlər tərəfindən sərhədçilərin istifadəsinə verilmiş məktəb binası sərhədçi minnətdarlığının və ehtiramının ifadəsi olaraq Dövlət Sərhəd Xidməti tərəfindən əsaslı təmir edilərək və yenidən qurularaq kənd sakinlərinin istifadəsinə verilib.

Məktəbin açılış mərasimində iştirak edən Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək məktəbin pedaqoji kollektivini və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib, ucqar kənd məktəbinin əsaslı təmir olunmasında köməyini əsirgəməyən Dövlət Sərhəd Xidmətinə rayon ictimaiyyəti adından minnətdarlığını bildirib.

Tədbirdə sərhədçi-vətəndaş əlaqələrinin möhkəm zəmin üzərində qurulmasının Vətənimizin hüdudlarının qorunması işində müsbət rol oynadığı, dövlət sərhədlərimizin mühafizəsinə ümumxalq qayğısının ilbəil artmasının sərhədçilər tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılandığı qeyd edilib.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu təhsil siyasətindən, həyata keçirilən islahatlardan, ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından ətraflı danışılıb. Tədbirin sonunda qonaqlar yeni təmir edilmiş məktəbin sinif otaqlarını gəzərək yaradılmış şəraitlə tanış olublar.




# YAP Xəzər rayon təşkilatının yaranmasının 25 illiyi qeyd olundu






*Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının yaranmasının 25 illiyi ilə əlaqədar YAP Xəzər rayon təşkilatının qərargahında tədbir keçirilib.*

Tədbirdə YAP İcra katibinin müavini, Milli Məclisin üzvü Siyavuş Novruzov, Xəzər rayon İH-nin başçısı Gülağa İslamov, millət vəkili Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, partiya veteranları, partiya fəalları, partiyanın gənc üzvləri və rayon ictimayyətinin nümayəndələri iştirak ediblər. Yubiley tədbirini YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov açaraq, tədbir iştirakçılarını rayon partiya təşkilatının yaranmasının 25 illiyi münasibəti ilə təbrik etdi və rayon partiya təşkilatının yaranma tarixindən, keçən illər ərzində, əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışıb.

Tədbirdə YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov, Xəzər rayon İH-in başçısı Gülağa İslamov, millət vəkili Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədr müavini Zeynəb Əliyeva, YAP Xəzər rayon təşkilatının gənclər birliyinin sədri Məxmər Rüstəmova çıxış edərək, tədbir iştirakçılarını yubiley münasibəti ilə təbrik ediblər. Natiqlər, YAP Xəzər rayon təşkilatının yaranma tarxi, inkişafı və əldə etdiyi uğurları qeyd edərək, eyni zamanda, YAP-ın yaranması tarixindən, partiyanın yaradılmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən, partiyanın ölkəmizin ictimai-siyasi həyatındakı rolundan danışıblar.

YAP Xəzər rayon təşkilatının yaranmasında və inkişafında göstərdikləri fəallığa görə, bir qrup YAP üzvü Fəxri Fərmanla və qiymətli hədiyyələrlə təltif olunnub və yeni partiya üzvlüyünə qəbul olunmuş gənclərə partiya üzvlük vəsiqələri təqdim edilib.

**Rövşən NURƏDDİNOĞLU**

# "Prezident çıxışında Ordumuzun nəyə qadir olduğunu bir daha düşmənin yadına saldı"

"Ermənistanda aprel hadisələrdən sonra hakimiyyətə gələn N.Paşinyan elə ilk gündən sərsəm fikirləri və Azərbaycanın əleyhinə səsləndirdiyi cəfəng iddiaları ilə əslində küçə siyasətçisi səviyyəsindən yuxarı qalxa bilmədiyini sübut etdi. Azərbaycan isə bu müddət ərzində təmkinli və soyuqqanlı davranmaqla öz hərbi-siyasi gücünə nə qədər arxayın olduğunu nümayiş etdirirdi". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

Deputat bildirib ki, Ermənistanda hamının bildiyi bir gerçəklik var: "Əgər havadarları əllərini bu ölkənin arxasından çəksə, o zaman Cənubi Qafqazda belə dövlətin mövcud olması mümkün olmayacaq. 2016-cı il aprel döyüşlərindən Ermənistan əhalisinin əksəriyyəti lazımi əşyalarını toplayaraq ölkədən qaçmağa hazırlaşırdılar. Siyasilər isə Azərbaycan Ordusunu dayandırmaq üçün yalvarmadıqları dövlət buraxmamışdılar. İndi öz siyasi çərənləmələri ilə hər kəsi bezdirən Paşinyan küçə hərəkatı ilə əldə etdiyi hakimiyyəti elə küçə siyasəti vasitəsilə də əlində saxlamağa çalışır. Ancaq bunun mümkün olmadığını gördükdə isə əhalinin aqressiyasını neytrallaşdırmaq üçün Azərbaycana qarşı verdiyi bəyanatları özünə siyasi sipər etmək istəyir. Azərbaycan Prezidenti İlham Əliyev isə bunun müqabilində bir tərəfdən hərbi-diplomatik yollarla özünə müttəfiqlər yaradır, digər tərəfdən isə ordu quruculuğu işlərini keyfiyyətcə yeni mərhələyə qaldırır".



H.Babaoğlu qeyd edib ki, Prezident İlham Əliyev Biləsuvar rayonuna səfər edərkən bir daha işğalçı dövlət olan Ermənistana 2016-cı ilin aprel, 2018-ci ilin Günnüt döyüşlərini xatırladaraq, Azərbaycan ordusunun nəyə qadir olduğunu bir daha düşmənin yadına saldı: "Prezident İlham Əliyev qeyd etdi ki, bundan sonra da biz onlara lazım olan vaxtda tutarlı cavablar verəcəyik. Düşmən bilir ki, bizim qarşımızda duruş gətirə bilməz. Bir neçə gün bundan əvvəl onların silahlı təxribatı nəticəsində Ermənistan-Azərbaycan sərhədində atışma olub və əsgərlərimiz onlara elə dərs veriblər ki, çətin ki, yaxın günlərdə özlərinə gəlsinlər. Yaxşı olar ki, Paşinyan özünün sərsəm açıqlamaları müqabilində Azərbaycan tərəfinin bu qətiyyətli addımlarını nəzərə alsın və Azərbaycan torpaqlarını işğaldan azad etmək barədə düşünsün. Əks təqdirdə onu sələflərinin aqibətindən də pis aqibət gözləyə bilər".

# Rusiyanın sərhəd gözətçi gəmisinin və Dövlət Sərhəd Xidmətinin gəmi və katerlərinin iştirakı ilə birgə təlimlər keçirilib

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) ilə Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq müvafiq fəaliyyətlər uğurla davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən tədbirlər çərçivəsində sentyabrın 16-18-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Dağıstan Respublikası üzrə Sərhəd İdarəsinin rəisi general-leytenant Aleksey Buyerovun rəhbərliyi ilə "Brilliant" sərhəd gözətçi gəmisi Bakı limanına dostluq səfəri edib.





Səfər zamanı tərəflər arasında görüş keçirilib, ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi və bioloji resursların qorunması, qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsinin davam etdirilməsi məsələləri müzakirə olunub.

Sentyabrın 18-də Rusiyanın "Brilliant" sərhəd gözətçi gəmisinin və Dövlət Sərhəd Xidmətinin gəmi və katerlərinin iştirakı ilə "Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, qeyri-qanuni miqrasiya, silah, partlayıcı maddələr və ölkə ərazisinə gətirilməsi və çıxarılması qadağan olmuş digər mal və yüklərin qaçaqmalçılığına qarşı mübarizənin aparılması" mövzusunda birgə sərhəd təlimləri keçirilib. Təlimlər zamanı qanunsuz fəaliyyətin aşkarlanması, şərti hədəfin təqib edilməsi və saxlanılması üzrə birgə hərəkətlərin işlənilməsi, məlumat mübadiləsinin həyata keçirilməsi kimi elementlər icra edilib.

Səfər müddətində "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan və Rusiya Sahil Mühafizəsi nümayəndələri arasında futbol üzrə yoldaşlıq görüşü keçirilib, qarşılıqlı qaydada tərəflərin sərhəd gözətçi gəmiləri ziyarət edilib. Qonaqlar mədəni tədbirlər çərçivəsində Heydər Əliyev Mərkəzini ziyarət edib, həmçinin Bakı şəhərinin mədəni-tarixi abidələri, o cümlədən İçərişəhər, Atəşgah və Qız Qalası ilə tanış olublar.

# “Səs” İnformasiya Agentliyinin 10 yaşı qeyd olunub






***Dünən Səs İnformasiya Agentliyinin (SİA) yaranmasının 10 illiyi münasibətilə yubiley tədbiri keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə millət vəkilləri, KİV rəhbərləri və digər qonaqlar iştirak ediblər. Azərbaycan dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəlcə Səs İnformasiya Agentliyinin fəaliyyətinin 10 illiyinə həsr edilmiş qısametrajlı film nümayiş etdirilib.***




Tədbiri giriş nitqi ilə açan SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib. O qeyd edib ki, Səs İnformasiya Agentliyinin 10 yaşından danışarkən “Səs” qəzetinin tarixinə toxunmaq lazımdır: “Çünki Səs İnformasiya Agentliyi məhz “Səs” qəzetinin bazasında yaranmış bir resursdur. 1991-ci il yanvarın 11-dən fəaliyyətə başlayan qəzet qısa müddətdə sevilərək 35 min tirajla nəşr edilib. “Səs” qəzeti mürəkkəb bir dövrdə zərurətdən yaranıb və ölkə ziyalılarını və Ulu Öndər Heydər Əli-















yev sevərləri öz ətrafında cəmləyib. Qəzet Ulu Öndərin fikir və ideyalarını xalqa, xalqın sevgisini isə öz liderinə çatdırmaqla yanaşı, cəmiyyətdə maarifləndirici rol oynayıb".

O əlavə edib ki, "Səs" qəzeti yarandığı gündən yenilənməyə meyilli olub, daim inkişafda olub və bu sahədə hər bir dəyişiklikdən, yenilikdən bəhrələnməyə çalışıb: "Bu gün Səs İnformasiya Agentliyi dünyanın bir çox tanınmış informasiya agentlikləri ilə əməkdaşlıq edir, informasiya mübadilələri aparır. Agentliyin ölkəmizin regionlarında olduğu kimi, Türkiyə, Rusiya, Gürcüstan, Misir və digər ölkələrdə də müxbir postları fəaliyyət göstərir. Lakin biz bununla da kifayətlənmirik və yaxın gələcəkdə əhatə dairəmizin daha da genişlənməsi üçün fəaliyyət planlarımız üzərində işlər aparırıq".

Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib ki, "Səs" qəzeti Azərbaycanın müstəqilliyinin ilk çətin illərində ərsəyə gəlib: "O zaman qəzet çıxarmaq çox çətin məsələ idi. Xüsusən bu qəzetdə Ulu Öndər Heydər Əliyevin hüquqlarının müdafiəsi olduqca çətin idi. Həmin dövrdə 3 dəfə "Səs" qəzetini bağlayıblar, iki dəfə hücum ediblər. "Səs" qəzetini blokadaya almışdılar. Lakin "Səs" qəzeti bütün bu çətinliklərin öhdəsindən layiqincə gəldi və sevindirici haldır ki, bu gün "Səs" qəzeti inkişaf etməklə yanaşı, iki yeni media orqanı - Səs İnformasiya Agentliyi və SƏS TV-ni yarada bildi".

S.Novruzov əlavə edib ki, "Səs" Media Qrupunun Azərbaycan media məkanında xüsusi yeri var: "Xəbərlərin cəmiyyətə operativ çatdırılması baxımından SİA bir nümunədir. Arzu edirik ki, SİA daim yenilənsin, inkişaf etsin, cəmiyyəti informasiya ilə təmin etsin".

Sonra çıxış edən Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov deyib ki, Səs İnformasiya Agentliyi hadisələr barədə cəmiyyətə operativ informasiya verən bir agentlikdir: "Səs İnformasiya Agentliyi jurnalistikanın bütün prinsiplərinə əməl edir. SİA hadisələrə dövlətçilik, milli maraqlar çərçivəsində yanaşma prinsipini özünün əsas prinsipi kimi tutur. "Səs" Media Qrupu Azərbaycan media məkanında ən güclü media vasitələrindən biridir". Ə.Amaşov "Səs" Media Qrupuna Mətbuat Şurasının diplomunu təqdim edib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə bildirib ki, Səs İnformasiya Agentliyi "Səs" qəzetinin davamıdır və getdikcə genişlənir. O qeyd edib ki, "Səs" qəzeti Azərbaycanın dövlət müstəqilliyi ilə yaşıddır: "O dövrdə bu qəzet çox geniş təbliğat aparırdı, Ulu Öndər Heydər Əliyevin fəaliyyətini geniş əks etdirirdi. Qəzetin ardınca Səs İnformasiya Agentliyi və "Səs" qəzeti yarandı, bu gün də cəmiyyətin informasiya ilə təmin edilməsində mühüm rol oynayır. "Səs" Media Qrupunun əməyinə dövlət tərəfindən də yüksək qiymət verilir. "Səs" Media Qrupu Azərbaycan media tarixinə öz adını qızıl hərflərlə yazdırıb". M.Qurbanlı komitə adından "Səs" Media Qrupuna mükafat təqdim edib.



# “20 sentyabr - Azərbaycanın neft-qaz sahəsinin dirçəlişinin başlanğıcıdır”

*Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı “Neft Daşları NQÇİ” ərazi ilk partiya təşkilatında bu mövzuda tədbir keçirib*







***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı “Neft Daşları NQÇİ” ərazi ilk partiya təşkilatında Azərbaycan neftçilərinin peşə bayramı münasibətilə “20 sentyabr - Azərbaycanın neft-qaz sahəsinin dirçəlişinin başlanğıcıdır” adlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədr müavini, “Neft Daşları NQÇİ” ərazi ilk partiya təşkilatının sədri Qoçalı Mahmudov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış “Əsrin müqaviləsi” respublikamızın salnaməsinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb. “Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir” deyə qeyd edən Q.Mahmudov, həmçinin, bildirib ki, neft strategiyasının son illər ölkəmizə gətirdiyi böyük dividendlərdən biri də məhz Azərbaycanın beynəlxalq səviyyədə böyük ümidlər bəslənən təbii qaz ixracatçısına çevrilməsidir: “Mənbəyini “Əsrin müqaviləsi”ndən götürən bu zəngin potensial hazırda Azərbaycanı regionun neft-qaz dövlətinə çevirib. Bütün bunlarla yanaşı, “Cənub Qaz Dəhlizi” layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və qitənin qaz nəqli infrastrukturunun şaxələndirilməsində əhəmiyyətli rol oynayacaq”.

Tədbirdə “Neft Daşları NQÇİ”-nin baş mühəndisi Azər Rüstəmov və rəis müavini Zeynalabdin Abdullayev çıxış edərək, bildiriblər ki, neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqlidir. “Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir” deyə qeyd edən natiqlər bildiriblər ki, məhz uğurlu neft strategiyası nəticəsində, Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir. Çıxışların sonunda Q.Mahmudov bir qrup şəxsə partiyanın ictimai-siyasi həyatında fəal iştirakına görə YAP Pirallahı rayon təşkilatının fəxri fərmanlarını təqdim edib. Tədbir geniş konsert proqramı ilə davam edib.

**Rövşən NURƏDDİNOĞLU**

## Rusiyalı ekspert: “Paşinyan qeyri-peşəkar hərəkətləri ilə vəziyyəti gərginləşdirir”

“Ermənistan hakimiyyəti öz qeyri-peşəkar hərəkətləri ilə vəziyyəti gərginləşdirir.” Bunu Trend və “Azərnyus”a müsahibəsində beynəlxalq münaqişələr üzrə rusiyalı ekspert Yevgeni Mixaylov deyib. Ekspert qeyd edib ki, Nikol Paşinyanın Dağlıq Qarabağın gələcəkdə Ermənistanın tərkibinə qatılacağı barədə Moskvadakı açıqlamaları populist və əsassız fikirlərdir və müasir siyasi reallığa əsaslanmır: “Bundan başqa, fikrimcə, bu cür bəyanatlar Moskvanın münaqişəni dinc yolla həll etmək səyləri fonunda təxribatçı görünür. N.Paşinyan Ermənistanın Azərbaycanla müharibəyə can atan qüvvələrinin xoşuna gəlməyə çalışır. Onun Rusiya ilə strateji ittifaqı davam etdirmək istədiyini nəzərə alsaq, bu, baş nazirin böyük səhvidir”.

Y.Mixaylov qeyd edib ki, Ermənistandakı siyasi dəyişikliklərdən, xüsusilə də indiki hakimiyyətin tamamilə qeyri-konstruktiv davranışından asılı olmayaraq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilk növbədə regionda sülhün və təhlükəsizliyin təminatçısı olmaq istəyən Rusiya üçün vacibdir: “N.Paşinyanın Dağlıq Qarabağ məsələsi ilə bağlı vəziyyəti qavramasının adekvatlığı barədə suala cavab verməkdə çətinlik çəkirəm. Ermənistanın indiki hökuməti qeyri-peşəkar hərəkətləri ilə vəziyyəti gərginləşdirməkdən başqa heç nə etmir. Bəzən isə çoxəsrlik dostluğu rəhbər tutaraq Moskva ilə dialoqu yoluna qoymağa çalışır, amma fikrimcə, Yerevan bu amillə oyun oynayır”.

## SOCAR: “Qarabağ”da ilk quyunun gələn ilin birinci yarısında qazılması planlaşdırılır

“Qarabağ” yatağında ilk qiymətləndirici quyunun gələn ilin birinci yarısında qazılması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib. “Həmin quyu “Dədə Qorqud” üzən qazma qurğusu ilə qazılacaq. Yataqdan hasilat 2021-ci ildə planlaşdırılır”, - deyə R.Abdullayev əlavə edib. Qeyd edək ki, bu il mayın 30-da SOCAR ilə Norveçin “Equinor” qrupunun bir hissəsi olan “Statoil Azərbaycan” şirkəti “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar risk xidməti” (RXS) haqqında saziş imzalayıb. Milli Məclis iyunun 29-da sazişi ratifikasiya edib. İyulun 5-də isə Prezident İlham Əliyev sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi üçün Qanun imzalayıb.



## Bu gün Hicri-Qəməri təqvimi ilə Məhərrəm ayının 10-cu günü - Aşura Günüdür

***Aşura Günü müsəlmanların yaddaşında mühüm hadisələrin baş verdiyi gün kimi yadda qalmışdır. Hicri-Qəməri təqvimi ilə bu gün Məhərrəm ayının 10-cu günü - Aşura Günüdür. Müsəlmanlar Aşura Günündə İmam Hüseynin (ə) şəhid edilməsinə görə geniş şəkildə əzadarlıq mərasimləri keçirirlər.***

“Aşura” ərəb sözüdür və onuncu deməkdir. Tarixi mənbələrə əsasən, Kərbəla hadisəsindən əvvəl də, Aşura Gününə müsəlmanlar arasında özünəməxsus şəkildə önəm verilib. Lakin hicrətin 61-ci ilində Məhərrəm ayının 10-da İmam Hüseyn (ə) və onun 72 səhabəsi İraqın Neynəva əyalətində yerləşən Kərbəla səhrasında zalım Bəni-Üməyyə xəlifəsi Yezid ibni Müaviyə tərəfindən şəhid edilib. İmam Hüseynlə (ə) birgə bütün 72 nəfərin başı bədənindən ayrılır. Başsız bədənlər üstündə atlar çapılır. Başlar isə, nizələrə vurularıq, digərlərinə ibrət olsun deyə, İraq və Şam şəhərlərində gəzdirilir. İmam Hüseynin (ə) ailəsi isə əsir götürülür və Dəməşqə Yezidin hüzuruna aparılır. Hadisənin 14 əsr bundan öncə, baş verməsinə baxmayaraq, hər il bu olayı yüz milyonlarla insan xatırlayır və onu digər nəsillərə təslim edir.

İmam Hüseyn ibni Əli (ə) Həzrəti Məhəmməd (s) Peyğəmbərin nəvəsi olmaqla yanaşı, həm də birinci İmam Həzrət Əlinin (ə) oğlu, eyni zamanda müsəlman ümmətinin üçüncü imamıdır. İslam Peyğəmbərinin ən sevimlisi olan İmam Hüseyn (ə) Hicri tarixinin 4-cü ilinin Şaban ayında dünyaya göz açıb. Peyğəmbərdən nəql edilən çoxsaylı hədislərə görə, o, cənnət gənclərinin ağasıdır. Qurani-Kərimdə “Əhzab” surəsinin 33-cü ayəsinə əsasən, beş müqəddəs insandan təşkil edilmiş Əhli-beyt ailəsinin biridir. Səhabələrdən nəql edilən hədislərə əsasən, o, Peyğəmbərin ən sevimli nəvələrindən olub və Həzrət Məhəmməd (s) Hüseyn (ə) düşmənlərini hələ öz sağlığında Peyğəmbər düşmənləri adlandırıb. Aşura Günü baş verən faciə islam dünyasında yeni və ciddi siyasi hərəkatlar yaradır. Tövbəkarlar qiyamı, Zeyd ibni Əlinin qiyamı, daha sonra Yəhya ibni Zeydin, Nəfsi Zəkiyyə, Məhəmməd ibni Qasim, Təbatəbai Hüseyni və Təbəristanlı Ələvilərin qiyamı və zülmkar hökumətlərə qarşı digər qiyamlar Aşura faciəsinin nəticəsində baş vermişdir.

Aşura faciəsi, bir daha sübut edir ki, zülm və işğalçılıq fədakarlıq, qorxmazlıq və mərdliyin qarşısında acizdir, həmişə də aciz qalacaq. Bunu İmam Hüseynin (ə) Kərbəlada göstərdiyi şücaət və mərdanəlik sübuta yetirib.

Bu gün Aşura faciəsi digərlərindən fərqlənir. Onu yaşadan və xatirələrdən silinməsinə imkan verməyən əsas amil ondan ibarətdir ki, Aşura heç bir qurum tərəfindən təbliğ edilmir və ona sevgi ədalət sevərlərin öz içindən qaynaqlanır.

Aşura Günü qanvermə aksiyalarının təşkil olunması Azərbaycanın dini ənənələrə və xüsusən də, Kərbəla hadisəsinin qeyd olunmasına daha bir humanist töhfəsidir. Ümid edirik ki, dünyanın digər bölgələrində Aşuranı qeyd edən müsəlmanlar Azərbaycanda mövcud olan bu humanist ənənəni mənimsəyərək, Məhərrəmlik mərasimlərini islamın və Kərbəla şəhidlərinin şəninə uyğun şəkildə qeyd edəcəklər.

Qeyd edək ki, xalqımız tarixi ənənələrinə söykənir və hər il Aşura mərasimi ilə bağlı qanvermə aksiyaları keçirilir. Bu gün də, ənənəyə uyğun olaraq, ölkəmizin müxtəlif məkanlarında qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə könüllü qanvermə aksiyası keçiriləcək.

# Cəhalət ənənələrinin davam etməsi təxribatçıların marağındadır

***Dini tolerant ölkə olan Azərbaycanda islam dininə hər hansı qadağalar və məhdudiyyətlər qoyulmasa da mövhumatçılıq, yaxud dindən istifadə etməklə iğtişaşlar yaradılması yolverilməzdir. Təkcə islam dini deyil, başqa dini etiqada məxsus insanların da süni şəkildə hər hansı bir çirkin niyyətin reallaşdırılmasına xidmət edən fəaliyyəti də qəbul edilən deyil.***



Müsəlmanlar bu ayı, yəni Hicri təqvimi ilə olan Məhərrəm ayını xüsusi hörmət və ehtiramla qarşılayır, islam əxlaqına və ehkamına müvafiq şəkildə yaşamağı tərcih edirlər. Hicri təqviminin 12 ayından və bu aylar içərisində 4 haram aydan biri olan Məhərrəm ayı yeni ilin başlanğıcı, ilk ayı kimi müsəlmanlar üçün çox əzizdir. Bu ayda gələcək xeyirli işlər planlaşdırılır, məhz müqəddəs ay olduğundan, ibadətə daha çox yer ayrılır. Hətta müsəlmanlar bu ayın müvafiq günlərində oruc tutmağı da rəva bilir və Ramazan ayından sonra, oruc tutulacaq ən fəzilətli ay kimi, Məhərrəm ayını nəzərdə tuturlar. Bu baxımdan, müsəlman dünyasında digər aylarda olan məşğuliyyətlərin bəziləri ixtisara salınır, qeyd etdiyimiz kimi, diqqət yalnız ibadətə cəmlənir.

### Təxribat niyyətlilər dezinformasiyalar yaymağa və mənfi fikir formalaşdırmağa can atırlar

Əfsus ki, hazırda din adı altında bəzi qüvvələr yalnız məkrli niyyətlər planlaşdırır və cəmiyyətdə mənfi ruhun, pessimist əhval- ruhiyyənin aşılanmasında maraqlıdırlar. Məhz buna görə də, Azərbaycanda cəhalət ənənələrinin ön planda olması üçün dəridən, qabıqdan çıxırlar. Daha dəqiq desək, cəhalət ənənələrinin davam etməsi təxribatçıların marağındadır. Lakin ölkəmizdə qanunların dini fəaliyyət üzərində nəzarət mexanizminin olması bu təxribatçı qüvvələrin yuxusunu ərşə çəkir və planlarını alt-üst edir. Məhz bu səbəbdən, təxribatçı qüvvələrin, yaxud təxribat niyyətlilərin təşviqi başa düşüləndir. İndi bu təşviş içində olanlar istər ənənəvi üsullarla, istərsə də virtual şəkildə, məsələn, sosial şəbəkələr vasitəsilə dezinformasiyalar yaymağa, mənfi fikir formalaşdırmağa can atırlar.

Təəccüblüdür ki, dini alətə çevirmək istəyən qüvvələr hətta Libermanın Azərbaycana gəlişini də bu məsələlərlə əlaqələndirməyə cəhd edirlər. Guya ki, Azərbaycanda Aşura Günü mərasimlərin keçirilmə qaydaları ilə bağlı qərarların verilməsi də İsrail tərəfindən təyin olunur. Libermanın Azərbaycana səfərinin məqsədinin də elə Aşura ilə bağlı olduğu fikrini formalaşdırmağa çalışırlar. Halbuki bu, fikir olaraq belə absurddur və bir o qədər də gülüncdür. Əvvəla, özləri də qeyd edirlər ki, bu mərasimdir, yəni ənənədir, adətdir. Deməli, özləri də təsdiq edirlər ki, bu adət-ənənənin dinə aidiyyatı yoxdur. Çünki din ibadətdir, ənənə deyil. Yaxud ənənəyə ibadət və ya din adı vermək olmaz. Ənənə ayrı, din və ibadət ayrı məfhumdır.

### Peyğəmbər əxlaqı görmüş şəxsiyyət bu cəhalətə razı ola bilməzdi

Digər tərəfdən, İmam Hüseyn məclislərı dedikdə, nə nəzərdə tutulur? Bu məclisləri, bu mərasimləri İmam Hüseynmi təşkil edir? Yoxsa İmam Hüseynin mərasim keçirmək barədə hansısa tövsiyyəsi olub? Bəlkə İmam Hüseyn əzalara vurmaq, xəsarət yetirmək, qan çıxarmaq barədə nə isə deyib? Heç inandırıcı deyil ki, Peyğəmbər əxlaqı görmüş və Onun nəvəsi olmuş, Şəhidlik zirvəsini seçmiş bir şəxsiyyət bu cəhalətə razı ola. Belə olan halda, bunlar həmin məclislərə hansı əsasla İmam Hüseyn məclisləri deyirlər?

İmam Hüseyn məclisləri, yaxud mərasimləri adı verdikləri baş yardı, əzaları yaralama, qançıxarma səhnələri heç də müsbət psixoloji aşılama vəd etmir. Əksinə, bu insan psixologiyasına mənfi təzahürlər kimi təsir bağışlayır. Ələlxüsus, uşaqların və yeniyetmələrin bu səhnələri izləməsi mənfi emosional vəziyyət yaranmasına şərait yaradır və bütün bunlar isə, heç də arzuolunan deyil. Uşaqların, məhz bu hallardan mühafizə edilməsi, islamı bu formada şəkildə dərk etməməsi üçün onların Aşura Günü mərasimlərdə iştirak etməsinə qoyulan qadağalar da, bu mənada, məqsədəuyğundur. Lakin təxribatçı qüvvələr bu məsələyə də münasibət bildirərkən öz mənafelərini, maraqlarını gizlədə bilmir, uşaqların belə mərasimlərə qatılmalarına çalışırlar. Şeytanapərəstlik kimi qələmə verdikləri, Azərbaycanda yaşayan yəhudilərin "Kabala" və "Purin" bayramlarında qanı simvolizə edən maddəni içmə mərasiminə uşaqların buraxılmasını nümunə gətirənlər dərk etmirlər ki, əvvəla, bu, özlərinin də qeyd etdiyi kimi, müsəlmanın yox, yəhudinin bayramıdır. Digər tərəfdən, yəhudi qanı simvolizə edən maye içirsə və bunu yəhudi uşaqları da müşahidə edirsə, müsəlman balaları da Aşura Günü hansısa başyarma, qançıxarma mənzərəsini müşahidə etməlidir?

### Cəhalət arzusunda olan təxribatçılar unudurlar ki, Azərbaycanda din qanunlarla tənzimlənir

Maraqlıdır ki, bu təxribatçı qüvvələr orta yaşlı nəslin də deyil, məhz uşaqların İmam Hüseyn məclisləri dedikləri başyarma, qançıxarma ənənələrindən çəkindirilməsi, iştirakına qadağalar qoyulmasından daha çox narahatdırlar. Belə məlum olur ki, onlar hələ bu xurafatın, cahilliyin gələcəkdə də davam edəcəyinə ümid edir, insanların qan tökmək kimi ənənələri yaşadacağını arzulayırlar. İstənilən zaman cihad, şəhadət adı altında insanlar arasında təfriqə salacaqlarına ümid edənlər, təxribatçılar, cəhaləti ön plana çəkmək istəyənlər bir şeyi unudurlar ki, Azərbaycanda din qanunlarla tənzimlənir. Qanunla qeydiyyatdan keçən bütün dini icmalar üçün şərait yaradılıb. Ölkədə tolerantlıq var, bütün din, yaxud hətta təriqət sahiblərinə eyni münasibətlə yanaşılır. Azərbaycanda dinlə dövlətin birgə fəaliyyəti bu gün dünyanın hər yerində nümunə kimi göstərilir. Hər kəs öz inancında azaddırsa da, başqasını öz təsiri altına salmaq hüququna malik deyil. Yaxud kənar qüvvələrin məkrli niyyətlərinə dini mənəvi dəyərləri alət etməyə heç kimin ixtiyarı yoxdur və məhz bütün bunlar qanunlarla tənzimlənir.

**İnam HACIYEV**

## İran vətəndaşının əl yükündə narkotik vasitə aşkarlanıb

Dövlət Gömrük Komitəsi (DGK) Əməliyyat İstintaq Baş İdarəsinin Əməliyyat idarəsinə İran vətəndaşı Mahdioghli Roghayeh Hasan qızının Azərbaycan ərazisinə narkotik vasitə gətirməsi barədə əməliyyat məlumatı daxil olub. Komitədən "Report"a verilən məlumata görə, Cənub Ərazi Baş Gömrük İdarəsi Astara gömrük postunun gömrük nəzarət zonasında vətəndaşın üzərinə və əl yüklərinə baxış keçirilib.

Baxış zamanı, vətəndaşa məxsus içərisində şəxsi əşyalar olan yük çantasında, 1 ədəd sellofan torbanın içərisində müxtəlif rəngli şarlara bükülmüş 10 ədəd yumru formalı bağlama aşkar olunub. Sonra həmin bağlamalar açılıb və hər bir bağlamanın içərisində açıq qəhvəyi rəngli, ümümi çəkisi 555 qram olan narkotik vasitə-heroin aşkarlanıb.

## Paşinyanlıq Kərimlinin üzündən tökülür



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Ermənistanın küçədən gəlmiş baş naziri Nikol Paşinyanın bu günlərdə pafosla etdiyi məlum və sərsəm çıxışının ardınca, ağıla gələn ilk fikir onun AXCP sədri Əli Kərimliyə bənzərliyi oldu. Daha doğrusu, erməni baş nazirinin, istər Azərbaycan dövlətinin maraqlarına qarşı, istər böhtan və şantajlarla dolu etdiyi çıxışlarının hər birindən, bilavasitə Ə.Kərimlinin cizgiləri görünürdü. Sadəcə, ortada olan yeganə fərqlilik onların fizianomiyalarının, yəni sifət quruluşlarının ayrı-ayrı olmasıydı ki, bunun da mövzuya heç bir dəlaləti yoxdur. Mövzuya dəlaləti olan isə, hər ikisinin beyinlərinin demək olar ki, eyni şəkildə ucuz düşüncələrə malik olmasıdır. Belə ki, həm Nikol, həm də Əli ucuz pafosdan doğan "siyasət" yürütməklə, həm də siyasi dividend axtarışındadırlar.***

### Bu dalan onun sonuncu dayanacağı da ola bilər, hətta olacaq da...

Yeri gəlmişkən, Nikol Paşinyanın öz oğlunu guya ki, işğal altındakı torpaqlarımıza, cəbhə bölgəsinə hərbi xidmətə göndərməsi, artıq erməni ictimaiyyətində müzakirə mövzusuna çevrilib. Bəlli olub ki, onun oğlu heç də Cəbrayılda hərbi xidmət keçmir, əksinə, Xankəndidə yüksək səviyyədə istirahət edir. Bununla bağlı erməni bloggerlərinin də müxtəlif sosial şəbəkələrdə yaydıqları məlumatlar mövcuddur. Məhz oğlu, ailəsi üzərində ucuz, əttökən siyasət yürüdərək, boğazını yırtıb, itirilməkdə olduğu reytinqini geri qaytarmağa cəhd edən Paşinyan reallıqda özünü daha da dalana dirəmiş oldu. Bu dalan onun sonuncu dayanacağı da ola bilər, hətta olacaq da...

Ümumiyyətlə, son vaxtlar onun ölkəsində artan narazılıqlar, yüksələn etirazlar diktatura və avtoritar rejimin qısa zamanda çökəcəyindən xəbər verməkdədir.

Məsələdən və mövzudan tam yayınmayaraq, keçid edək AXCP sədri Əli Kərimliyə. Belə ki, bu "ana müxalifət liderinin" Paşinyana bənzərliyi əsasında dayanan onun öz partiyası daxilində yaratdığı avtoritar və diktatura rejimidir.

### İkisini də eyni...

Digər məsələyə də diqqət yetirək. Misal üçün, Paşinyan da mitinqlərdən əl çəkə bilmir, Kərimli də. Paşinyan da Azərbaycan xalqına və dövlətinə düşməndir, Kərimli də. Paşinyan da eyforiyaya qapılaraq, zamanından tez proqnozlar və qərarlar verib özünü gülünc vəziyyətə salır, Kərimli də. Bu sıralamanı artırmaq da mümkündür. Hətta bilməyən olarsa, Nikolla Əlinin qardaş olduğunu da deyər...

Beləliklə, fakt budur ki, əgər bu gün Əli Kərimlinin ermənipərəstliyi, erməni sevdalısı olmasından qətiyyət təəccüblənməyə dəyməz. Əgər Kərimli sabah mitinqdə erməni dilində çərənləsə, yenə də təəccüblənməyə dəyməz. Hər halda, paşinyanlıq onun sifətindən tökülür. Hələ deyərdim ki, Paşinyanın da üzündən Kərimlilik axır. Fərqi yoxdur, ikisi də eyni...

# YAP Yevlax rayon təşkilatı gənclər birliyi ilk təşkilatlarının gəncləri ilə görüş keçirib



Dünən Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatı gənclər birliyi "Mədəniyyət" məhəlli ilk partiya təşkilatında gənclərlə görüş keçirib.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində Ulu Öndərin büstü önünə gül dəstələri düzüblər. Sonra gənclər Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Konfrans zalında Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyi haqqında söylədiyi fikirlər və YAP Yevlax rayon təşkilatının keçirdiyi tədbirlərdən ibarət video-çarxa nümayiş olunub.

Tədbiri YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev açaraq, Ulu Öndər Heydər Əliyev siyasətinin gənclər tərəfindən öyrənilməsi, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi qayğı və diqqətdən, YAP Yevlax rayon təşkilatının qarşıya qoyduğu prioritet məsələlərdən danışıb. Sonra tədbirdə YAP Yevlax rayon təşkilatı gənclər birliyinin sədr müavini Maksud Süleymanlı və başqaları Ümummilli Lider Heydər Əliyevin və Yeni Azərbaycan Partiyasının şərəfli həyat yolundan danışıblar.

Tədbir gənclərlə qarşılıqlı diskussiya şəraitində davam edib.

Sonda Zülfiyyə Vəlizadə "Mədəniyyət" məhəlli ilk partiya təşkilatının sədri seçilib.

**R.HÜSEYNOVA**

# Ermənistanın müdafiə naziri ordunu idarə edə bilmir



Ermənistanın baş naziri Nikol Paşinyan işğal altında olan Azərbaycan torpaqlarına səfəri zamanı burada yerləşən hərbi hissələri ziyarət edib. Bu ziyarətin əsas səbəbi də son zamanlar Ermənistan ordusunda əsgər ölümlərinin artmasıdır. Böyük ehtimal, onun işğal altındakı Dağlıq Qarabağa səfər etməsi məhz oradakı hərbi hissələrdən birində xidmət edəcəyini öyrənən Ermənistanın Ararat vilayətinin Nor Xarberd kəndinin 28 yaşlı sakini Arman.T adlı şəxsin intihar etməsi ilə əlaqədardır. Qeyd edilməlidir ki, Paşinyan hakimiyyətə gələndən sonra Ermənistan ordusu və qondarma rejimdə əsgər ölümləri ilə bağlı hadisələr daha geniş yayılıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında analitik Ehtiram Aşırlı bildirib. Analitik qeyd edib ki, Aprel döyüşləri və Günnüt əməliyyatlarındakı məğlubiyyətlərdən sonra Ermənistan ordusundakı böhran getdikcə dərinləşir. Ermənistanın müdafiə naziri D.Tonoyan isə bu məsələləri həll etməkdə çətinlik çəkir, çıxış yolunu da həqiqətləri xalqdan gizlətməkdə görür. Həmçinin D.Tonoyan "Ermənistan ordusunda xidmət edən əsgərlərin ilin sonunadək yeni keyfiyyətli botinka və formalarla təmin ediləcək" şəklində bəyanatlar səsləndirərək xalqın diqqətini yayındırmağa və guya ordudakı vəziyyətin yaxşıya doğru getdiyini göstərməyə çalışır. Lakin bu zaman belə bir sual yaranır ki, həqiqətən Ermənistan ordusunda vəziyyət yaxşıya doğru gedirsə onda niyə erməni "dığa"ları xidmət etməkdən boyun qaçıraraq intihara cəhdə edirlər?".



## Onun-bunun ayağının altında yalmananlar

RƏFİQƏ

Ötən mitinqdən yazdım.Yazdım ki, biabırçı fiaskoya uğurayıblar. Ancaq nə faydası, elə yenə də müxaliflər həmin kəslərdir. Ona görə də, bu dəfə mitinqin AXCP və "Milli Şura" rəhbərliyi tərəfindən "10 min nəfər adam gəlmişdi" kimi sərsəm iddiaları barədə yazmayacağam, nə də əvvəlki mitinqlərdə Avropa İttifaqının bayrağını başlarının üstünə qaldırılmalarından yazacağam. Bu dəfə AXCP-"Milli Şura" cütlüyü "REAL"ın sədri İlqar Məmmədova qarşı birgə keçirmək istədikləri mitinqdə onun-bunun ayağının altında yalmanan satqınlardan yazacağam. Hətta deyilənlərə görə, mitinqlə bağlı AXCP-"Milli Şura"nın birgə iclası da keçirilib. Ə.Kərimli özünü qabaqcadan sığortalamaq üçün funksionerlərə çatdırıb ki, bu dəfə xaricdən gələn qrantlardan gözlərini çəksinlər. İlqar Məmmədova qarşı savaş aparacağını gizlətməyən Ə.Kərimli, eyni zamanda, Avropadakı "siyasi mühacirləri" də bu işə qoşduğunu planlaşdırdığını və milli xəyanətkarlar statusunu qazanmış Orduxan Teymurxanı, Tural Sadıqlını və Sevinc Osmanqızını öz tərəfinə cəlb etməkdən ötrü, bu qrantları onlara ötürəcəyi ilə bağlı məlumat da verib. Mitinqdə də mümkün qədər onu "mübarizədən" kənarlaşdırmaq üçün "birlik" nümayiş etdirməyi tapşırıb. Bax, budur müxalif cəbhədə didişmələrin gerçək səbəbi və "birliyi".

Bu, o C.Həsənli idi ki, AXCP-yə və Əli Kərimliyə tüpürərək, parlamentdəki mandatını daha üstün tutub, ikiəlli Milli Məclis kreslosundan yapışmışdı. Ona görə də, həmin o qol-qola gedən sıralamada da yox idi. Amma indi tarix tərsinə fırlanır. İndi İsa Qəmbər, Lalə Şövkət, Mirmahmud Mirəlioğlu, Əli Əliyev ortada yoxkən, Cəmil Həsənli göbələk kimi pırttıyıb düşüb ortaya. Yanında da Gültəkin Hacıbəyli də var. Bax, məsələnin məğzu də budur ki, nə Cəmil Həsənli, nə də ki, Gültəkin Hacıbəyli deputat seçilmədiklərinə görə, indi olublar "Milli Şura"nın gülü-bülbülü. Və bu "güllər" və "bülbüllər" keçirəcəkləri mitinqdə, baş tutarsa, yenə başlayacaqlar İlqar Məmmədova qarşı mübarizə savaşını həyata keçirmək üçün onun-bunun ayağının altında yalmanmağa. Yaxşı bilirsiniz siz hər keçirdiyiniz mitinqlərdə səsləndirdiyiniz boğazdanyuxarı cəfəngiyyat və boş xəyallardır. Bədbəxtsiniz, 25 ildən çoxdur ki, xəyallarla yaşayırsınız, özünüz də yaxşı bilirsiniz, sadəcə, qoymusunuz özünüzü o məsələyə...

# Bakcell "ASAN Məktub"la uşaqların xəyallarını gerçəkləşdirməyə davam edir



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə "ASAN Könüllüləri" təşkilatının "ASAN Məktub" təşəbbüsünə qatılıb. Layihə çərçivəsində Təhsil Nazirliyi və "ASAN xidmət"in birgə təşəbbüsü olan "Məktəblinin dostu" layihəsinin də tərəfdaşlığı ilə xüsusi aksiya təşkil olunub. "Bilik Günü" münasibətilə keçirilmiş bu aksiyanın əsas məqsədi yeni tədris ilinin başlaması ilə əlaqədar, www.asanmektub.az saytında öz arzularını yerləşdirmiş uşaqları sevindirmək, onların arzu və istəklərini reallaşdırmaqdır.

Bu münasibətlə, Bakcell nümayəndələri və ASAN Könüllülərin iştiraki ilə xüsusi tədbir təşkil edilib və aztəminatlı ailələrdən olan 50-dən çox 1-9 sinif şagirdinə məktəb çantası və ləvazimatları hədiyyə olaraq verilib.

"ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Bakcell şirkəti artıq 2 ildən çoxdur ki, bu layihəyə dəstək göstərir. Bu müddət ərzində "Bakcell"in dəstəyi ilə Bakı və Azərbaycanın bölgələrində (Lahic, Qəbələ, Şirvan, Neftçala) 500-ə yaxın uşağın arzusu gerçəkləşdirilib. Uşaqların saf arzularını reallığa çevirən bu layihə www.asanmektub.az internet səhifəsi vasitəsilə 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların yazdığı məktublar sayta yerləşdirilir və onların istəkləri xeyirxah vətəndaşlar tərəfindən reallaşdırılır. Layihənin mobil rabitə dəstəyi isə Bakcell şirkəti tərəfindən təmin edilir. Xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqları daim diqqət mərkəzində saxlayan Bakcell şirkəti uşaqlara sevinc bəxş etmək və onlara qayğı və diqqətini göstərmək üçün davamlı şəkildə "ASAN Məktub" layihəsi və bu sahədə həyata keçirilən digər təşəbbüslərə dəstək göstərir.

# "Nar"-ın Bilik Günü müsabiqəsində iştirak edənlər hədiyyələr qazandı

Həmişə rəqəmsal kanallarda müsabiqələri və yarışları ilə fərqlənən "Nar"-ın 15 sentyabr - Bilik günü münasibətilə keçirdiyi müsabiqə abunəçilər və sosial şəbəkə istifadəçilərinin rəğbəti ilə qarşılandı. 15 - 17 sentyabr tarixləri arasında keçirilmiş müsabiqədə iştirak edənlər suallara cavab verməklə həm məktəb illərini xatırladı, həm də internet bonusları və hədiyyələr qazandı.

https://www.nar.az/mekteb-illeri.html səhifəsində keçirilmiş müsabiqədə dörd min beş yüzdən çox insan iştirak edib. İştirakçıların hamısı Nar tərəfindən internet bonusları ilə mükafatlandırıldı. Maksimum nəticə göstərən ilk 20 nəfərə isə mobil operator tərəfindən əlavə olaraq hədiyyələr verildi. Yarışda orta iştirak müddəti 6 dəqiqə 43 saniyə olub.

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.



"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Ermənistanın yeni hakimiyyəti diktatura siyasətini davam etdirərək, regionu təhlükələrlə üzbəüz qoyur

*Ermənistanın Azərbaycana qarşı başladığı müharibə, 27 ildən artıqdır ki, davam edir. Bu müddət ərzində, cəbhə xəttində atəşkəsin işğalçı dövlət tərəfindən aramsız olaraq pozulması da bunu isbatlayır. Baxmayaraq ki, tərəflər arasında atəşkəs barədə razılaşma var. Ermənistan tərəfi bu razılaşmaya məhəl qoymayaraq, nəinki Azərbaycana məxsus hərbi hissələri, hətta sərhəd rayonlarında, cəbhə bölgəsində yerləşən ərazidə yaşayan dinc əhalini də atəşə tutur. İşğalçıların, mütəmadi olaraq atəşkəsi pozması, müxtəlif çaplı silahlarla hədəfə alması nəticəsində, sərhəd rayonlarında yaşayan əhali xəsarət alır, şəxsi təsərrüfatlarına, bu təsərrüfatlarda saxlanılan ev heyvanlarına zərər yetirilir, yaşayış binaları müxtəlif formada dağıntılara məruz qalır.*



### Ermənistan haqsız mübarizəni tarix boyu bütün istiqamətlərdə aparıb və indi də davam etdirir

İşğalçı dövlət mübarizəni təkcə silah-sursatla deyil, virtual şəkildə də davam etdirir, dezinformasiyalarla, maddi-mənəvi dəyərləri saxta yollarla mənimsəməklə, yalan və əks-təbliğatla haqsız mübarizəsini qlobal miqyasda da aparır. Baxmayaraq ki, məhz Azərbaycana məxsus ərazilər işğala məruz qalıb, azərbaycanlı əhaliyə qarşı soyqırımı siyasəti aparılıb, bizim vətəndaşlarımız terrorun, vandallığın, vəhşiliyin qurbanına çevrilib, hələ də bir milyondan çox qaçqın öz yurd-yuvasından məhrumdur. Ermənilər bütün dünyaya bunun əksini təbliğ etmək üçün dəridən-qabıqdan çıxır. İşğalçı rejim bu qədər haqsızlığın, bu qədər qanunsuzluğun, bu qədər soyqırımların, vəhşiliyin və terrorun fonunda Azərbaycanı günahkar dövlət kimi dünyaya tanıtmağa çalışır. Xocalı faciəsinə imza atan, ixtiyar qocaları işgəncələrlə qətlə yetirən, uşaqların əzalarına kəsici-deşici və odlu silahlarla xəsarət yetirərək onları tələf edən, hamilə qadınları belə süngüdən keçirən vandallar Azərbaycan tərəfindən soyqırıma məruz qaldığına bütün dünya ictimaiyyətini, beynəlxalq qurumları və demokratik institutları inandırmağa çalışır. Dünyanın hər yerinə səpələnmiş erməni lobbisi açıq şəkildə bu istiqamətdə haqsız mübarizə və müharibə aparır.

Tarixə ekskurs etsək, görərik ki, erməni xisləti yeni bir təzahür deyil və zaman-zaman təkcə Azərbaycanda deyil, qonşu dövlətlərdə də, ələlxüsus, Türkiyədə də özünü büruzə verib. Qonşu dövlətlərə məxsus torpaqların mənimsənilməsi, qanunsuz əməllər bir tərəfə, türk milli mənsubiyyətinə məxsus insanlara qarşı antipatiya, soyqırımı siyasəti "böyük Ermənistan" xülyasında olanların əsas missiyasıdır. Erməni silahlılarının Türkiyədə də soyqırımı siyasəti yürütdüyü tarixi gerçəklikdir və türklərin bu vandalların vəhşiliyindən tarix boyu əziyyət çəkdiyi, itgilərə məruz qaldığı hamıya bəllidir. Lakin Azərbaycanda, özü də XX əsrin sonlarında ermənilər tərəfindən törədilən cinayətlərin misli-bərabəri ola bilməz və erməni terrorçuları Xocalı kimi insanlıq dramına imza atmaqla, təsdiq etdilər ki, vəhşilikdə onların analoqu yoxdur. Bu vəhşiliyə imza atan terrorçular, eyni zamanda, bütün dünyaya bəyan etdilər ki, türk milli mənsubiyyətinə və Azərbaycan xalqına qarşı onlarda antipatiya var.

### Ermənistan parlamentinin "Şant-2018" hərbi təlimləri çərçivəsində Azərbaycana müharibə elan etməsi işğalçılıq siyasətinin təsdiqi və etirafıdır

Ermənistanda keçirilən "Şant-2018" hərbi komanda-qərargah təlimləri çərçivəsində Ermənistan parlamentinin Azərbaycana qarşı müharibə elan etməsi, əslində, mövcud faktın, yeni Ermənistanın işğalçı və təcavüzkar dövlət olmasının dövlət səviyyəsində növbəti dəfə təsdiqidir. Parlament səviyyəsində müharibə elan edilməsi isə, işğalçılıq siyasətinin etirafıdır. Bu, həmçinin, Ermənistanın yeni siyasi-hərbi rəhbərliyinin özünün də arxaik düşüncəyə sahib olduğunun göstəricisidir.

### İşğalçı dövlətin hədsizliyinə beynəlxalq qurumlar, təşkilatlar və demokratik institutlar hələ də susur

Ölkəmizin siyasi, iqtisadi və digər sahələrdə inkişafı ilə işğalçı dövlətin səfalət içində olması və daha dərin uçuruma sürüklənməsi arasındakı kəskin fərq bir tərəfə, Azərbaycanın sülhsevər siyasəti ilə, Ermənistanın terrorçuluq siyasəti arasındakı fərqi də dünya ictimaiyyəti görür. Nədənsə, bu sadalanan fərqləri beynəlxalq təşkilatlar görməzliyə vurmaq istəyir. Nəyə görəsə, hələ də ikili standartlar siyasəti ön plandadır və beynəlxalq qurumlar, insan hüquqları təşkilatları, demokratik institutlar nə səbəbə isə, hələ də susur. Bu isə, yəni işğalçılara qarşı təsirli ola biləcək beynəlxalq siyasi-diplomatik təzyiqlərin göstərilməməsi, hətta sanksiyaların tətbiq edilməməsi Ermənistanın cəzasızlıq hissini daha da artırır. Nəticədə, bu işğalçı dövlət, ələlxüsus, onun yeni, səriştəsiz hakimiyyəti hədsizlik nümayiş etdirir, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik edir, ələlxüsus da, regionda təhlükəli vəziyyətin yaranmasına xidmət edir.

Beynəlxalq miqyasda keçirilən görüşlər, tədbirlər zamanı, ələlxüsus, beynəlxalq təşkilatlar, insan haqları, demokratik institutlar qarşısında Ermənistanın danışıqlara qoşulması, münaqişənin həllini müzakirə etməsi ilə real mövqeyi, göründüyü kimi, üst-üstə düşmür. Razılıq əldə etmək istəyən dövlət, danışıqlarda maraqlı olan ölkə müharibə iddiası ilə çıxış edə bilməz. Daha doğrusu, parlament səviyyəsində müharibə elan edən ölkənin danışıqlarda iştirakı riyakarlıq nümunəsi kimi dəyərləndirilə bilər. Ermənistan, daha dəqiq desək, başda Nikol Paşinyan olmaqla, bu işğalçı ölkənin yeni hakimiyyəti hələ də ziddiyyətli və biri digərini inkar edən bəyanatlar verilməkdədir. Dünya ictimaiyyətinin diqqətindən, heç də kənarda deyil ki, bu ziddiyət, artıq dövlət siyasətinə də sirayət edib və işğalçı ölkə Paşinyan kimi küçə nümayişçisinin ziddiyətli mövqeyinin, daha dəqiq desək, mövqesizliyinin girovuna çevrilib. "Şant 2018" hərbi təlimləri çərçivəsində Ermənistan parlamentinin Azərbaycana müharibə elan etməsi və bunu ölkə parlamentinin rəsmi internet səhifəsində yerləşdirməsi də, öz növbəsində, təsdiq edir ki, bu işğalçı dövlət hazırda Paşinyanın oyunlarına alət olub və baş nazirin ziddiyyətli mövqeyi, yaxud mövqesizliyi dövlət səviyyəsində özünü büruzə verir. Daha doğrusu, Ermənistan artıq dövlət səviyyəsində ziddiyyətli mövqe, movqesizlik nümayiş etdirir.

Daxili auditoriyaya hesablanmış çıxışlarla, populist nitqlər və vədlərlə Qərb siyasəti sayəsində, əslində, hakimiyyət çevrilişi edən nümayişçi baş nazir kürsüsünü ələ keçirdikdən sonra özünün rəhbərliyə yararsız, səriştəsiz, ideyalarının isə mənasız olduğunu özü də dərk etdi. Pafoslu çıxışlarının, Rusiyadan tam şəkildə asılı ola-ola Qərbə meyil etməklə, ölkə vətəndaşlarına xoşbəxt gələcək vədlərinin cəfəngiyyat olduğunun bütün ermənilərlə yanaşı, dünya ictimaiyyəti də şahidi oldu. Hakimiyyəti ələ keçirdikdən sonra bu yükü daşıya bilməyəcəyinin fərqində olan və bu səbəbdən də, başını itirmiş Paşinyan Qərb ölkələrində bir, Rusiyada başqa bir mövqe sərgiləməklə mahiyyətini ortaya qoydu. İndi nə bu baş nazirin, nə də onun yeni hakimiyyəti altında olan Ermənistanın qərarlarını, bəyanatlarını ciddiyə, yaxud hesaba alan belə yoxdur. İddialarının isə mahiyyəti göz qabağındadır və əsassız olduğu bir aksiomdur. İşğalçı dövlətin və onun yeni hakimiyyətinin istər müharibə elan etməsi, istərsə də Azərbaycanın qondarma rejimlə danışıqlar aparmalı olduğu iddiaları cəzasızlıq səbəbindən doğan hədsizlik nümunəsidir və Paşinyan hakimiyyətinin digər bütün qərar və iddiaları kimi cəfəngiyyatdır.

**İnam HACIYEV**

# Paşinyan diktaturasının növbəti hədəfi - MEDİA

## *"Yerevan Today" saytının baş redaktoru Sevak Akopyan: "Kompüterim müsadirə olunub, özü də həmin müsadirə təkrar yoxlamalar zamanı baş verib"*

Nikol Paşinyanın diktator rejimi bu dəfə köhnə hakimiyyət sisteminin ardınca, media üzərinə doğru yeriyib. Belə ki, onun növbəti hədəfi "Yerevan Today" saytı və həmin saytın baş redaktoru Sevak Akopyan olub. Məsələ ondadır ki, "Yerevan Today" saytı, müstəqil informasiya agentliyi kimi, Nikol Paşinyanın fəaliyyətini tənqid edib, eyni zamanda, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın təbliğində daha çox mövqe nümayiş etdirib. Eyni zamanda, Paşinyan hakimiyyətinin bu və ya digər sahələrdə buraxdığı ciddi səhvləri analiz edən sayt müxtəlif politoloqların, ekspertlərin rəylərinə yeni yer ayıraraq, siyasi mövzularda polemikalar təşkil edib. Həmçinin, qeyd edək ki, adıçəkilən sayt bütün bunlarla yanaşı, videomüsahibələri ilə də yadda qalır.

Nikol Paşinyan hakimiyyəti isə, artıq avtoritar idarəçilik sistemini daha da möhkəmləndirmək üçün, onlara sərf etməyən məlumatları yayan saytlara, o cümlədən, yazılı mətbuata qarşı basqı kampaniyalarına başlayıb. Təhdidlər, axtarışlar və xəbərdarlıqlar, artıq digər KİV-lərə qarşı da aparılmaqdadır. Lakin ilk açıq zərbə, məhz Sevak Akopyanın baş redaktoru olduğu "Yerevan Today" saytına vurulub. Səhər saat 8:30-da gəldilər və mənim kompüterimi, eləcə də, digər kompüterlərin sərt disklərini apardılar. Bu barədə erməni mətbuatına "Yerevan Today" informasiya saytının baş redaktoru Sevak Akopyan deyib. Onun sözlərinə görə, redaksiyasına basqını və axtarışı "altıncı şöbə" deyilən Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsi, eyni zamanda, Ermənistanın İstintaq Komitəsi edib.

"Kompüterim müsadirə olunub, özü də həmin müsadirə təkrar yoxlamalar zamanı baş verib" deyə qeyd edən adıçəkilən saytın baş redaktoru bunun əvəzində, ona hər hansı bir əsasın gətirilmədiyi də deyilib.



Sevak Akopyanın qeyd etdiyinə görə, onun qənaətincə, səbəb budur ki, texniki xətalara görə, sayt Milli Təhlükəsizlik Xidmətinin (MTX) və Xüsusi İstintaq İdarəsinin (XİI) rəhbərlərinin telefon danışıqlarının audioyazısını, guya digər KİV-lərdən fərqli olaraq, 2 gün əvvəlcədən ictimailəşdirib. Onun sözlərinə görə, bu, saytın texniki xətasıdır və "Yerevan Today" audioyazını, digərlərindən fərqli olaraq, gec ictimailəşdirib. Belə ki, digər KİV-lərdəki materiallarda səs yazısının tam stenoqramı verilib.

Baş redaktor vurğulayıb ki, o və əməkdaşlar basqın edənlərə anlatmağa çalışıblar ki, bu, texniki xətadır və "Google" ilə əlaqəlidir. Belə ki, MTX və XİI rəhbərlərinin mətbuat konfransları da iki gün öncənin tarixini göstərib. "Əgər məntiqi baxımdan yanaşsaq, onlar bu barədə iki gün öncə necə öyrənə bilərdilər?" deyə Akopyan sual edib. Beləliklə, sayt rəhbəri polisin bu hərəkətinin heç bir qanuna sığmadığını deyib. "Mən polisin bu hərəkətlərini məsuliyyətsizlik kimi qiymətləndirirəm" deyən Sevak Akopyan, həmçinin, qeyd edib ki, baş verənlər saytın fəaliyyətinə zərər vurmaq cəhdidir və kompüterlərdə heç nə tapa bilməsələr belə, onsuz da, heç bir məlumat verməyəcəklər.

Jurnalistlərin "Yerevan Today" saytının Ermənistanın ikinci prezidenti Robert Koçaryana məxsus olması ilə bağlı suallarını da cavablandıran Akopyan "Robert Koçaryanın bu sayta heç bir aidiyyatı yoxdur" cavabını verib.

Nəticə olaraq, görünən budur ki, artıq Nikol Paşinyan onun yoluna çıxacaq siyasilərlə, ictimaiyyət nümayəndələri ilə yanaşı, jurnalistləri də hədəfə almağa başlayıb və əsas məqsəd KİV-i susdurmaqdır. Hər halda, diktatura rejimi cücərməkdədir.

**Rövşən RƏSULOV**

# Müxalifətin ucuz birlikləri

## Sürətlə növbəti fiaskolara doğru

***Bu gün siyasi müxalifət arenasında fəaliyyət göstərən, lakin ictimai-siyasi proseslərə heç bir təsir edə bilməyən bir sıra birliklərin öz fəaliyyətlərini dayandırması heç də təəccüb doğurmur. "Güc birlikdədir" kimi ibrətverici atalar sözlərini qulaqardına vurub, tamamilə başqa, eləcə də, anlaşılmaz "birliklərdən" dəm vuran dağıdıcı müxalifət "liderləri"nin yaratdıqları "birliklər"in aqibətləri, əslində, belə də olmalıdır. Çünki onlar cəmiyyət qarşısında heç vaxt səmimi görünməyiblər. Məhz bu səbəbdən də, cəmiyyət onları heç zaman qəbul etməyib və bu gün də etmir. Bu nəzərəçarpan amil isə, özünü hər zaman göstərmişdir. Məsələn, Rüstəm İbrahimbəyovun "Milli Şura-sı", Eldar Namazovun "EL"-i, bir neçə müxalifət partiyasının "birləşdiyi" "Məşvərət Məclisi", fəaliyyəti dayanmaq üzrə olan "Milli Şura" və s. Bir sözlə, görünən odur ki, siyasi dividend qazanmaq xatirinə "birlik" ideyaları ilə çıxış edən müxalifət "liderləri" belə uğursuz addımları ilə özlərini, onsuz da, onlara inanmayan xalqdan təcrid etməkdədirlər.***



### Xarici siyasi dairələr faktoruna söykənən "birliklər"

Hazırda dağıdıcı müxalifətin ən çox müzakirə etdiyi, daha dəqiq desək, saqqız kimi çeynənilən, cəmiyyəti usandıran mövzulardan biri, bəlkə də birincisi, yuxarıda qeyd etdiyimiz kimi, "birlik" çağırışlarıdır. Əgər ötən dövrlərə nəzər salsaq, görərik ki, 1993-cü ildən başlayaraq, yəni son 25 ildə "birlik" çağırışları, demək olar ki, hər zaman aparılıb. Ancaq suallar da yaranıb: bu "birləşmənin" məqsədi-məramı nədən ibarətdir ki, "birliyi" bu qədər vacib faktor hesab edirlər? Söz yox ki, burada daha bir qaçılmaz amil dayanıb - xarici siyasi dairələr faktoru dayanır. Əgər ortada xarici amil mövcuddursa, təbii ki, burada Azərbaycanda olan siyasi-iqtisadi maraqlardır və bu maraqları təmin etmək isə xarici dairələrə hava-su kimi lazımdır. Ona görə də, əllərinə keçirdikləri "liderlərə" tapşırıqlarını verməklə, həmin xarici dairələr həm də öz aralarında mübarizə aparmış olurlar. Nəticədə, "birlik" çağırışlarının səmimiyyətsizliyi kifayət qədər ortaya çıxmış olur. Deməli, "liderlərin" birlik istəyi yalandan başqa heç bir şey deyil. Cəmiyyət də bunu gözəl hiss edir.

Bu yerdə növbəti belə bir sual ortaya çıxır: əgər bu "liderlərə" "birlik" belə vacibdirsə, niyə vaxtilə böyük siyasi gücə malik Azərbaycan Xalq Cəbhəsi Partiyası bu gün ortada yoxdur..? Məgər BAXCP-nin, DİP-in, BQP-nin, KXCP-nin, "Aydınlar" partiyasının, eləcə də, digər çoxsaylı qurumların bu gün bir dam altında - AXCP-də fəaliyyət göstərməməsinin əsas baiskarı kimdir? Çox qəribədir ki, "birlik" istəyən "liderlər" özləri də yaxşı bilir ki, baiskar kimdir və cavab da verirlər ki, Əli Kərimli. Əgər Ə.Kərimli baiskar deyilsə, haradadır vaxtilə AXCP rəhbərliyinə daxil olan şəxslər..?

### Hanı..?

Digər tərəfdən, nəyə görə bu gün Ə.Kərimlinin vaxtilə beynəlxalq məsələlər üzrə müavini olmuş Asim Mollazadə onun yanında deyil? Nəyə görə AXCP ali məclisinin keçmiş sədri Qulamhüseyn Əlibəyli "Aydınlar" partiyasının, AXCP sədrinin siyasi məsələlər üzrə keçmiş müavini Fazil Mustafa BQP-nin sədridir? AXCP-nin sədr müavini Zəlimxan Məmmədli bu gün nəyə görə Ə.Kərimli ilə birgə "siyasi mübarizəyə" qoşulmayıb? AXCP-nin sədr müavini Mirmahmud Mirəlioğlu hansı səbəblərdən dolayı KXCP sədrinə çevrilib? Eləcə də, hanı Qüdrət Həsənquliyev? Hanı Ə.Kərimlinin sağ əli Əli Məsimli? Fuad Mustafayev, Tofiq Qasımov, Əliməmməd Nuriyev..?

Göründüyü kimi, adları çəkilənlərin və çəkilməyənlərin heç biri AXCP-də yoxdur. Çünki Elçibəy faktorunun yoxluğunun əsas günahkarı da, məhz Ə.Kərimlidir!

### Sərdar Cəlaloğlu: "Nəticə əldə etməyi bacarmayan koalisiyada qalmaq faydasızdır"

Məsələn, fəaliyyətini dayandırmış "Antiböhran Koalisiyası"nda təmsil olunmuş və bu qurumun sıralarını tərk edən ADP sədri Sərdar Cəlaloğlu ciddi nəticə əldə etməyi bacarmayan koalisiyada qalmağın faydasız olduğunu vurğulamışdı: "Bir halda ki, bir neçə müxalifət partiyası "Antiböhran Koalisiyası"nda qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bilmədisə, demək həmin birliyin fəaliyyətinə ehtiyac da görmürəm. Çünki oradakı partiyaların əksəriyyəti siyasi səhnədə gözə görünməkdən ötrü ora toplaşmışdılar. Yəni onların məqsədləri heç də böhrandan çıxış yolunu tapmaq olmayıb".

### Əhməd Oruc: "Koalisiya ictimai rəydə maraq doğurmayıb və aktuallığını itirib"

Həmin ərəfələrdə "Azadlıq" partiyasının sədri Əhməd Oruc da "Antiböhran Koalisiyası"ndan çıxacağını bəyan edərək, koalisiyanın ictimai rəydə maraq doğurmadığını və aktuallığını itirdiyini demişdi: "Faktiki böhran siyasi səhnədən çıxıb. Böhranla bağlı artıq cəmiyyətdə heç bir gözlənti yoxdur. "Antiböhran Koalisiyası"nın bu məsələlərini ortadan götürmək istiqamətində heç bir addımı yoxdur. Nə bir mitinq keçirir, nə millətin diqqətini cəlb edən ideyalar ortaya qoyur".

Beləliklə, fakt budur ki, istər adıçəkilən "koalisiya"nın, istər "İctimai Palata"nın, istər "MKM"-in və digər çoxsaylı birlik və blokların iflasa uğramaları bir reallığı sübut edir: bu cür müxalifətin mövcudluğu, əslində, demokratik siyasi ab-havaya qarşı zərərlidir. Belə müxalifətə heç adi uşaq da inanmaz. Necə deyərlər, fakt açıq-aşkar şəkildə ortadadır.

*Rövşən RƏSULOV*

# Özü-özünü inkar edən siyasətbaz Gültəkin

## Nankorluq onun xislətindədir

***Siyasətin çirkin bir şey olduğunu iddia edənləri iki qrupa bölmək olar: birincilər, sadəcə, bu məfhumun nə olduğunu, olduğu kimi qavramayanlardısa, ikincilər, gerçəkdən çirkin əməllər müəllifi olduqlarından, siyasətin adına damğa vurmaqla, ictimai qınaqdan sivişib çıxmaq niyyəti güdənlərdir. Nə yazıq ki, Azərbaycanda siyasətin nə olduğunu doğru-dürüst biməyənlər kimi, gündə bir dona girərək, siyasəti murdarlayan çoxüzlü mindillilər, Muğan otu kimi səmt küləyinin istiqamətinə asanlıqla boyun əyən zavallı məxluqlar da az deyil.***

Keçmiş millət vəkili, AXCP-"Milli Şura"nın "primadonnası", çörəyi dizinin üstündə olan Gültəkin Hacıbəyli yenə ortadadır. Elə bu günlərdə AXCP və "Milli Şura"nın "REAL"ın sədri İlqar Məmmədova qarşı aksiyaların başlanmasına rəvac verməkdə marağı olan Gültəkin Hacıbəylinin məqsədi keçiriləcək mitinqdə yenə də Azərbaycanın beynəlxalq "arenadakı" yüksək mövqeyinə, yerinə və roluna kölgə salmaqdır. Bu da, təəccüblü deyil. Çünki bu, o G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. Ölkədə hər hansı bir qarışıqlıq olursa, o zaman G.Hacıbəylinin çiçəyi çırtlayır və başlayır "demokratiya libasına" bürünməyə. Xalqa demokratik prinsiplərdən "dərs keçən", yeri gəldi-gəlmədi iqtidarı tənqid edən G.Hacıbəyli kimilərin əsl mahiyyəti və gerçək siması budur. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəsini 180 dərəcə dəyişən, Vətəninə, dövlətinə üz çevirən satqınların bir adı var - NANKORLAR.

### AŞPA Gültəkin Hacıbəylini "pat" vəziyyətinə saldı

Əslində, bu, gözlənilən idi. İyun ayında AŞPA-nın Prosedur Qaydaları, İmmunitetlər və İnstitusional Əlaqələr Komitəsinin G.Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük girişinə qadağası "Milli Şura"nın "primadonnası"nı özündən çıxararaq, "kürü macərası"nı açıb-tökdü. "Eks-deputat avropalı deputatlara niyə kürü apardı?" başlığı ilə yazısında, AŞPA nümayəndə heyətində olduğu zaman, Azərbaycan nümayəndə heyətinin lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, bu fəaliyyətin qanuni lobbiçilik sərhədlərini aşmadığını dilə gətirib. Eyni zamanda, vurğulayıb ki, qanuni lobbiçilik fəaliyyəti ilə əksər ölkələrin nümayəndələri məşğul olur və bu, AŞPA tərəfindən



də normal qəbul olunub. Bununla da, G.Hacıbəyli özü-özünü inkar edib. Bu yerdə deyirlər ki, "yalançının yaddaşı olmur" el məsəlində deyildiyi kimi. G.Hacıbəylinin verdiyi müsahibələrinə diqqət yetirsək, görərik ki, əsassız ittihamları elə özü təkzib edib və bununla da, özünü dolaşdırıb. Məlum olub ki, bu xanımın iqtidarda təmsil olunan şəxslərin ünvanına vaxtilə səsləndirdiyi fikirlər əsassız olub. Sadəcə, seçicilərinin və təmsil olunduğu komandanın etimadını itirən, deputat mandatından məhrum olan G.Hacıbəyli hikkəsinin təsiri ilə ağzına gələni danışıb və deputat seçilməməsinin qisasını bu yolla - Azərbaycan xalqı və dövləti, o cümlədən, rəsmi şəxslərin ünvanına kin-nifrət dolu ittihamlar səsləndirməklə almağa çalışıb. Kəhrəba qaşlı üzüklər, simvolik şərflər, dəbdəbəli restoranlarda təqdim edilən yeməklər üçün qəribsəyən G.Hacıbəyli məqsədli şəkildə ermənipərəst dairələrin Azərbaycan əleyhinə apardıqları kampaniyanın bir hissəsinə çevrilib. Bütün bunlar isə, onun əsl kimliyini tam çılpaqlığı ilə ortaya qoyub.

Bu yerdə bu atalar məsəlini xatırlamasan olmur: "Utanmasan, oynamağa nə var ki?"

G.Hacıbəyli, unutma: bu ölkənin hazırkı durumu bir tək sənin kimi miskinlərə, "rəzil həyat" olaraq, görünə bilər. Ataların başqa misalıdır: bayquş xarabalığı gülüstana dəyişməz. Amma sənin kimilərin Vətənə belə münasibəti yenə də sənin qəlbində yuva salmış əxlaqsızlığın ən bariz təzahürüdür.

Bax, bu yerdə, xalqım məni qınamasın, yerində gəldiyi üçün deməliydim. Çünki bu gün belə anlaşılır ki, sənə görə, məhz sən guya böyük siyasətdən gedəndən sonra dediyin "zülmət qırğıları" əl-qol açıblar və nəticədə, "hazırkı siyasi hakimiyyət ölkəmizi ictimai-siyasi, hüquqi, iqtisadi və ən başlıcası, mənəvi bataqlığa sürükləyib, Azərbaycan insanını isə yaşadığı və bəlkə də heç yaşamayıb-süründüyü rəzil həyata məhkum edib.

Çünki sənin əqidən, həyat amalın bu məmləkəti talamaq olub, satıb-satılmaq olub. Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var: nankorluq, satqınçılıq. Bir də, nə deyirsən de, necə deyərlər: çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!..

*Rəfiqə HÜSEYNOVA*

# İnsan haqları bəşəriyyətin ali dəyəri kimi

***Məlum olduğu kimi, bəşəriyyətin ən ali dəyəri olan insan haqlarını müdafiə edən müxalif qurumlar, təşkilatlar və konsepsiyalar yaranmışdır. Azərbaycan tədqiqatçısı Leyla Aqşin qızı İsgəndərova məhz buna görə yazır: "İnsan hüquq və azadlıqları adi dəyərlər deyil. Çox qədim tarixi olan bu ali dəyərlərin qorunmasına, onların müdafiəsinin təmin edilməsinə son dərəcə həssas yanaşma və diqqət tələb olunur. İlk növbədə, cəmiyyətin ən yüksək pilləsinin canlı varlığı olan insan amili nəzərə alınmalı, o, lazımi səviyyədə dəyərləndirilməli, sonra isə onun hüquq və azadlıqları ilə bağlı düşüncələr irəli sürülməli və dərindən sərf-nəzər edilməlidir.***

İnsan hüquq və azadlıqlarının universallağını, onların planetdə möhkəm sülhə və təhlükəsizliyə nail olunmasında, habelə, beynəlxalq gərginliyin zəiflədilməsində tarixi rolunun düzgün və obyektiv qiymətləndirilməsi baxımından, insan hüquqlarına və azadlıqlarına dair tarixən formalaşan və cəmiyyətin inkişafı gedişində tədricən təkmilləşən nəzəriyyələrin məna və mahiyyətinin araşdırılması vacibdir. Burada söhbət həmin nəzəriyyələrin, sadəcə olaraq, tarixi aspektlərini deyil, həyati mənasını və insan nəslinin püxtələşməsində meydana çıxardığı müddəaları nəzərdən keçirmək haqqında gedir.

Məlum olduğu kimi, insan hüquq və azadlıqları müəyyən ideallara və reallıqlara söykənən dəyərlərdir. Bu da təsadüfi deyil, çünki hüquq və azadlıqların müdafiəsi, onların təminatlarının reallaşması bir və ya bir neçə dövlətin deyil, bütün insanlığın qarşısında duran ən vacib və qlobal problemlərdən biridir. Ona görə biz də həmin problemlə bağlı mülahizə və düşüncələrimizə müraciət etməli olduq.

İnsan "hüquq və azadlıqları haqqında konsepsiyalar özündə durğun və ya sükunətdə olan prinsip və müddəaları ehtiva edən doktrinalardan ibarət deyillər. Bu vasitələrdən biri olmuş və bu gün də öz əhəmiyyətli rolunu oynamaqdadır. Bəşər tarixi həm də onu göstərir ki, ictimai rəy fərdləri, cəmiyyət üzvlərini biganə və passiv seyirçi mövqeyindən xilas etməkdə təsirli vasitələrdən biridir. O, insanların vahid bir istiqamətdə fəallıq göstərməsi və səfərbər olması üçün həmişə öz müsbət rolunu oynamışdır.

İkincisi, istər ayrıca insan haqları məfhumu ilə bağlı məsələlər olsun, istərsə də ictimai rəy mövzusuna dair problemlər, bir çox məqamların mövcud ədəbiyyatda şərhi qeyri-qənaətbəxş olduğundan, mənfi təəssürat yaradır. Belə ki, ya açıq-aşkar səthilik, bəsitlik özünü göstərir, yaxud da bir sıra əhəmiyyətli məsələlərə münasibətdə obyektivlik, zəruri olan zaman-məkan tələbləri gözlənilmir, hətta çox vaxt milli səciyyə nəzərə alınmır. Qabarıq tərəflilik, konyuktur yanaşma, ifrat subyektivlik, hansısa yanlış fikrin təkrar-təkrar gündəmə gətirilməsi və birmənalı həqiqət qisminə işıqlandırılması, necə deyərlər, yalanın kütləviləşdirilməsi, sanki xroniki xarakter almışdır, Aydındır fikir və baxışlarda, fərdi və ictimai şüurda özünə yer etmiş yalan və təhriflər, ideya-siyasi bəsitlik və yaxud qərarsızlıq, dünyagörüşü sahib axtarır, lakin tapa bilmir, ən yaxşı halda isə, ya tədqiqatçı özü, ya kənardan kimsə bu yoxsul-yazıq haqlara sahib çıxır, beləliklə, onlar özləri-özlərinə heç cür sahiblik edə bilmirlər. Aydındır, bir "haqq" ki, özünə sahiblik edə bilmir, deməli, kiminsə haqqını qorumaqda gücsüz və acizdir. Bir sözlə, "haqq" haqlığından çox, əl oyuncağı və kimlərinsə maraqlarını ödəməli olan məşğuliyyət vasitəsi rolunda çıxış edir. Dördüncüsü, söhbət gedən məfhumların fəlsəfəsizlik mühitində tədqiqi və şərhi həm də onu göstərir ki, son onilliklərin araşdırmaları, faktiki olaraq, heç bir adekvat və səmərəli epistemologiyaya söykənmir. Fikrimcə, zaman-məkan parametrləri ilə şərtlənən müvafiq qnoseoloji zəminlər, metodoloji üsul və formalar, aksioloji determinantiar, hətta zərurət olduqda, yeni leksika və prosedurlar yoxdursa, hər hansı aktual problemin çözülməsi məhsuldar ola bilməz. Elm tarixi bunu dəfələrlə sübut edib. İdraki alət həmişə müasir olmalıdır. Bu mənada, hal-hazırda ən yaxşı idraki alət, məncə, postneoklassik epistemologiyadır. Hörmətli oxuculara təqdim olunan kitabda da, məhz həmin epistemoloji sistem, onun mahiyyətinə xidmət göstərən tənqidi-sinergetik təfəkkür konsepsiyası rəhbər tutulur və istifadə edilir.

Beşincisi, ali varlıq olan insanın haqları içərisində başlıca yer tutan azadlıq sosial-iqtisadi və siyasi amillərdən çox, mənəvi-ruhi mənbədən qaynaqlanır. Bu statusu anlayan adam həm özünə, həm də başqasına nəzərən insan azadlığını vətəndaş azadlığından (siyasi rejim, dövlət, cəmiyyət, hökmdar və digər ünvanlardan istiqamətlənən və təmin olunan "pay"dan!) vacib bilir və öndə tutur. Dahi filisof He-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

konsepsiyaların hər birinin insan hüquq və azadlıqları ilə bağlı prinsipial müddəaların inkişaf etdirilməsində müəyyən payı vardır. Hər bir konsepsiya özünəməxsus qanunauyğunluqlara, pozitiv ənənələrin təkmilləşdirilməsinə dair məqsədlərə malikdir. Konsepsiyaların tarixi təkamül proseslərinə müraciət etməkdən məqsədimiz hüquq və azadlıqları növlərə, yaxud təsnifat düzümlərinə ayırmaqdan ibarət deyil. Digər bir tədqiqatçı fəlsəfə elmləri doktoru Əbdülhəsən Abbasov göstərir ki, birincisi, son iyirmi ildə sistemli transformasiya dövrünü yaşamış və bu gün də modernləşmə xəttini üstün tutaraq zəruri islahatların həyata keçirilməsini vacib bilən Azərbaycan Respublikasının dövlət siyasətində bu mövzu aparıcı yerlərdən birini tutur və həmişə gündəlikdədir. Belə ki, ictimai yeniləşmə, müxtəlif həyat sahələrində islahatların aparılması, son nəticədə, konkret insanlardan, ayrı-ayrı insan qruplarından və onların talelərindən keçir. Yəni bilavasitə fərdlərin, sosial qrupların hüquq və azadlıqları ilə, eyni zamanda, ümumbəşəri əhəmiyyət kəsb edən bu dəyərlərin reallaşmasında öz yeri və rolu olan ictimai rəylə sıx bağlıdır. Məhz ictimai rəy hüquqlar uğrunda tarixi mübarizədə başlıca pıntıları, son nəticədə, ictimai praktikada, insanların əməli fəaliyyətində, ümumən, cəmiyyət və dövlət strukturlarının işində olduqca xoşagəlməz nəticələrə gətirib çıxarır. Üstəlik də, sui-istifadə hallarına, ayrı-ayrı daxili və xarici dairələrin məkrli niyyətlərinin reallaşmasına yol açır. Təsadüfi deyildir ki, bu gün "insan haqları" ətrafındakı spekulyasiyalar siyasi alver, dəllallıq, maddi qazanc mənbəyinə çevrilmiş möhtəkirlik əməlli-başlı dəbə çevrilib. "Hüquq alverçiləri" haqq uğrunda mübarizəni təmənnalı bir peşəyə çeviriblər, onlar durmadan siyasi və maddi dividendlər əldə etmək marağında bulunurlar.

Üçüncüsü, insan hüquq və azadlıqlarına dair yazılarla uzunmüddətli tanışlıqdan sonra, gəldiyim qənaət ondan ibarətdir ki, kəmiyyətcə ədəbiyyat bolluğu varsa da, aidiyyəti əsərlərdə keyfiyyət cəhətdən nəsə çatışmır, bəlkə də, çox şey yetərli və qaneedici deyil. Hər halda, mənim təəssüratım belədir: bilavasitə insanla, onun taleyi, həyatı ilə sıx bağlı mühüm anlayışın tədqiqi və şərhində, elə bil ki, fəlsəfədən başqa hər şey var - lazım olan da, olmayan da. Belə çıxır ki, insan haqları fəlsəfəsiz bir dünyanın kirayənişinidir. Nəticə olaraq, bir tərəfdən, hamı onlara (haqlara) gel, görkəmli rus mütəfəkkiri N.A.Berdyayev əbəs yerə demirdilər ki, azadlıq - insan ruhunun əbədi başlanğıcıdır, ruh - elə azadlıqdır. Əgər ruh hansısa səbəblərdən korroziyaya uğrayırsa və ya sönüklüyə məhkum edilirsə, azadlıq artıq zədələnir, mahiyyəti etibarilə cırlaşır və özünəməxsus dəyərlərini itirir və təmsil etdiyi şəxsin "Mən"ini qoruya bilmir. Nəticə olaraq, insan ali varlıq kimi statusunu itirir, yeyən-içən, kefkomluq edən, gündə bir hoqqa çıxaran "nazir balasına", "ana uşağına", "papa yadigarına" və yaxud da, sonsuz zülmlərə, aşağılanmalara boyun əyərək, saxtakarlıqlarda və qeyri-qanuni əməllərdə iştirak edən, şagird-tələbələrindən qopardığı rüşvətin hesabına "rahat həyat" sürən "müəllim"ə çevrilir. Azadlığın əbədi başlanğıcını keçici siyasi rejim və formalarla, hansısa ideya-nəzəri, sosial-fəlsəfi cərəyanlarla, o cümlədən, demokratiya və liberalizmlə, bilavasitə bağlamaq, çərçivələmək nə mümkün, nə də düzgün deyil. Əksəriyyətin ənənəvi surətdə düşündüyünün əksinə olaraq, liberalizm (ümumən) və qlobal kapitalizmin ideyanəzəri əsası olan anqlosakson liberalizm (xüsusən) azadlığın "atana"sı deyil və ola da bilməz. Azadlıq problemi ölçülməz dərəcədə liberalizm problemindən dərindir. Liberalizmdə azadlığın heç bir etibarlı əsası yoxdur. Həqiqi azadlıq onu burada heç axtarmalı da deyil. Əfsuslar ki, bizim "azadlıq aşiqləri", QHT rəhbərləri, insan haqları ilə məşğul olan "hüquq madafiəçiləri", ideoloq-nəzəriyyəçilər və praktiklər umduqları azadlıq meyvəsini məhz bu bağdan dərmək istəyindən əl çəkmirlər. Yarandığı gündən burjua-kapitalist maraqları naminə böyük və ali məfhumu təhrif etmiş, "tam") özünə sərfəli "hissə" ilə əvəzləmiş mənfəətdar liberalizmin fəaliyyətdə olmuş və olan müxtəlif modifikasiyalarında azadlıq adından, ən yaxşı halda, "vətəndaş azadlığı" danışır ki, o da son nəticədə, individualizmə və eqoizmə, ifrat təbəqələşməyə və sosial ədalətsizliyə, insanın özgələşməsinə və yaxud da başqasına qarşı canavara çevrilməsinə yol açır. Bu gedişatda dahilərin bəşəriyyətə ərməğan etdikləri "hüquqi dövlət" də özünün "qarşısınıalma və çəkindirmə" "hakimiyyətlərin bölünməsi" prinsipləri ilə naəlac qalır. Hətta Allah da böhran yaşayan insanı və insanlığı bu cəhənnəmdən qurtarmağa, sanki tələsmir.

Bəzi tədqiqatçılar insan haqlarının qorunması sahəsində problemlərin olduğunu qeyd edirlər. İlahiyyatçı Seyid Müstəba Musavilari yazır: "Müasir elmi-texnologiya və mədəniyyətin ortaya çıxardığı ruhi narahatlıq və xəstəlikləri nəzərə almamaq olmaz. İndiyədək olan bütün kəşflər və ixtiralar yaşayışı asanlaşdıraraq, ümumbəşəri inkişafa kömək etsə də, onun fikri və ruhi narahatlığını azalda bilməmişdir; mənəvi məsələlərdəki problem və böhranları aradan qaldırmamış və insanlara həqiqi səadət bəxş etməmişdir.

İnsanlar cismani ehtiyaclardan əlavə, mənəvi və ruhi tələbatlara da malikdirlər. Cismani ləzzətlərə bağlı olduğu qədər, mənəvi istəklərin təmin olunmasını da istəyirlər. Şübhə yoxdur ki, bu ehtiyacların ödənilməsi yolları maddi varlıqlardan kənarda axtarılmalıdır. Maddiyyat çərçivəsində onlara cavab vermək bağışlanılmaz səhv olmaqla yanaşı, insanın xilqət, fitrət və təbiəti ilə də müvafiq deyildir. İnsan övladı yaşayışının əvvəllərindən maddi mədəniyyət mərhələsinin inkişafına başlamış, onun istedadı elm və sənətin tərəqqisində əsas rol oynamışdır. Amma maddi və mənəvi həyatdakı nailiyyətlərin müvazinəti olmasa, insan həqiqi səadətə çata bilməz."

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

səs

Son səhifə 20 sentyabr

## Tennis insan ömrünü təxminən 10 il uzadır



Alimlər sübut ediblər ki, mütəmadi olaraq tennis oynayan insanların ömürləri təxminən 10 il uzanır. AZƏRTAC MadDaily saytına istinadla xəbər verir ki, mütəxəssislərin fikrincə tennis insan orqanizminə qaçış və velosipedə nisbətən daha çox fayda verir. Bunu təxminən 8600 könüllünün iştirak etdiyi tədqiqatlar sübut edib. Araşdırmalardan məlum olub ki, tennis oynayanlar ümumiyyətlə idmanla məşğul olmayanlara nisbətən təxminən 9.7 il daha çox yaşayırlar. Badminton oynayan insanlarda bu göstərici 6.2, futbolçularda isə təxminən 5 ildir. Rəqib və ya ümumiyyətlə insanlarla təmas tələb etməyən idman növlərinin isə bir o qədər səmərəli olmadığı müəyyən edilib.

Velosiped sürmək orta hesabla insan ömrünü 3.7, üzgüçülük 3.4, qaçış isə 3.2 il uzadır. Alimlər tennisin bu qədər yaxşı nəticə verməsinin səbəbini hələ müəyyən edə bilməyiblər. Lakin onların fikrincə burada sosial amil mühüm rol oynayır. Belə ki, komanda şəklində tennis və ona bənzər oyunlar bədənə ağırlıq vermək və ürək döyüntülərini artırmaqla yanaşı, digər insanlarla da əlaqə qurmağa şərait yaradır. Uzunömürlülük üçün isə kommunikasiya çox vacibdir.

## Rəngli tərəvəzlərin faydası

Elm adamları uzun tədqiqatlardan sonra insanı ən təhlükəli xəstəliklərdən qorumağa qadir olan qidaların siyahısını müəyyən ediblər. AZƏRTAC Rusiyanın ecodiet.ru saytına istinadla həmin qidaların siyahısını açıqlayır. Xərçəng əleyhinə xüsusiyyətlərə malik olan sarımsaq güclü immunitet dəstəkləyicisidir. Sarımsaq təbii antiseptik vasitədir, mikrob və virus əleyhinə təsirə malikdir. Əsl təbii antibiotik olan sarımsağı həftədə 2-3 ədəd çiy halda yemək məsləhətdir.

Nar, gilas və çiyələk kimi qırmızı meyvələrin tərkibindəki maddələr bədəndə xərçəng hüceyrələrinin artmasına mane olur. Hər gün qırmızı rəngdə olan meyvə yemək orqanizmi möhkəmləndirir və xəstəliklərdən qoruyur.

Pomidor, qreypfrut, qarpız, itburnu, turp və digər qırmızı rəngli qidaların tərkibindəki likopen xərçəngin bir çox növlərindən qoruyucu funksiyanı yerinə yetirir. Müəyyən edilib ki, likopen prostat vəzin xərçəngi, həzm sistemi, döş və dəri xərçəngi xəstəliklərinə yaxalanmaq riskini 30-40 faiz azaltmağa qadirdir. Xüsusilə pomidorun tərkibindəki likopen sağlamlıq üçün çox faydalıdır.

Adətən tərəvəzlər bişərkən onların qida dəyəri azalır. Maraqlıdır ki, bu, pomidora şamil edilmir, çünki onu bişirdikcə tərkibindəki likopen orqanizm tərəfindən daha çox mənimsənilir. Belə ki, çiy pomidora nisbətən onun suyu, bişmiş vəziyyəti, ketçup və tomatda iki-üç dəfə çox vitamin olur. Ona görə də pomidoru 5-6 dəqiqə bişirdikdən sonra yemək tövsiyə olunur.

Antioksidant tərkibli tərəvəzlər immuniteti gücləndirir. Brokkolinin tərkibindəki qlutamin maddəsi xüsusən mədə xərçənginə qarşı ən yaxşı qoruyucu vasitələrdən biridir.

Yaşıl və qara çayın içərisində olan bəzi maddələr isə bir sıra xəstəliklərin inkişafının qarşısını alır. B vitamini və beta-karotinlə zəngin olan yeralması da xəstəliklərə qarşı qoruyucu təsirə malikdir. Qırmızı bibər və zəncəfil də xəstəlikdən qoruyan qidalar sırasına daxildir. Araşdırmalardan portağal və limon suyunun orqanizm üçün ən faydalı təbii şirə olduğu müəyyən edilib. Həmin içkilər orqanizmdə daş yaranmasının qarşısını almağa kömək edir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin III kurs tələbəsi Alyarova Günel Azər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Nəsirova Təranə Taleh qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Qalatasaray", "Barselona" və "Liverpul" Çempionlar Liqasına qələbə ilə başlayıb



Futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinə start verilib. Belə ki, qitənin ən nüfuzlu klub turnirində 8 qrupda yarışan 32 komanda pley-offa vəsiqə qazanmaq üçün mübarizə aparır. "Barselona" öz meydanında Hollandiyanın PSV klubunu qəbul edib. Olduqca sürətli keçən qarşılaşmada meydan sahibləri rəqibini 4:0 hesabı ilə darmadağın edib - 4:0. İtaliya "İnter"i isə, "Tottenhem" üzərində əzmkar qələbə qazanıb - 2:1.

Türkiyən turnirdəki yeganə təmsilçisi olan İstanbulun "Qalatasaray" klubu, ilk turda Rusiya çempionu "Lokomotiv"lə (Moskva) öz meydanında qarşılaşıb. Rəqibinə heç bir şans verməyən Fatih Terimin komandası 3 xalı 3 qolla qazanıb. Çempionlar Liqasının son finalçısı "Liverpul" doğma meydanda PSJ-ni qəbul edib. Olduqca gərgin və maraqlı keçən qarşılaşmada ingilis klubu rəqibinə 3:2 hesabı ilə qalib gəlib.




## "Bakı-2018": Cüdo üzrə dünya çempionatının püşkü atılıb

Sentyabrın 19-da Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının püşkü atılıb. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, qurumun vitse-prezidenti Sergey Soloveyçik, idman direktoru Vladimir Barta, hakimlər üzrə direktor Xuan Karlos Barkos, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli, təşkilatın baş katibi Elmar Babanlı, Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Zaur Mütəllimov, olimpiya çempionu Nazim Hüseynov və iştirakçı ölkələrin nümayəndələri tədbirdə iştirak ediblər. Əvvəlcə IJF-nin Bakıda təşkil olunacaq yarışla bağlı hazırladığı videoçarxı təqdim olunub. Daha sonra M.Vizer çıxış edərək gözəl təşkilatçılığa görə Azərbaycan Cüdo Federasiyasına (ACF) təşəkkür edib. O deyib: "Ən yaxşı və güclü olan qalib gəlsin. İdmançılara uğurlar arzulayıram. Bakıda ən yaxşı dünya çempionatlarından biri keçiriləcək". S.Soloveyçik də təşkilatçılıqdan məmnunluğunu ifadə edib: "Sizi Bakıdakı dünya çempionatında salamlayıram. Gözəl təşkilatçılığa görə ACF-in prezidenti Rövnəq Abdullayevə təşəkkür edirəm. Hər şey çox yüksək səviyyədədir".

E.Babanlı isə çıxışında cüdo üzrə dünya çempionatının Azərbaycan üçün təkcə yarış yox, həm də tarix olduğunu söyləyib. O, mundial iştirakçılarına uğurlar arzulayıb.

## Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatı 190-dan çox ölkəyə yayımlanacaq

Beynəlxalq Cüdo Federasiyası (IJF) Bakıdakı dünya çempionatını yayımlayacaq telekanalların adlarını açıqlayıb. AZƏRTAC xəbər verir ki, yayımçılar arasında CNN, Euronews, BBC kimi nəhəng telekanallar da var. Bu il auditoriyanın rekord əhatə dairəsi olacaq. Çempionatı 190-dan çox ölkədə izləmək mümkün olacaq. Səksən altı ölkə isə birbaşa öz telekanalları vasitəsilə çempionatı ekranlara gətirəcək. Azərbaycan ərazisində nüfuzlu yarış AzTV (İdman Azərbaycan) və "CBC Sport" telekanalları vasitəsilə yayımlanacaq.




## Duqlas Kosta rəqibin üzünə tüpürdüyü üçün cəzalanıb

"Yuventus"un futbolçusu Duqlas Kosta "Sassuolo" ilə oyunda rəqib futbolçu Di Françeskonun üzünə tüpürdüyü üçün sərt cəzalanıb. SİA-nın məlumatına görə, Braziliya millisinin üzvü 4 oyunluq cəza alıb. Kosta qarşılaşma zamanı Di Françeskoya dirsəklə, sonra təpiklə və kəllə ilə vurub. Braziliyalı vinqer son saniyələrdə italiyalı futbolçu ilə dialoq zamanı onun üzünə tüpürüb. 29 yaşlı futbolçu açıqlamasında üzr istəsə də, Di Françeskonun ona qarşı xoş sözlər demədiyi üçün bu addımı atdığını deyib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500